# HƏQİQİ ATATÜRKÇÜLÜK



HARUN YƏHYA

HARUN YƏHYA (ADNAN OKTAR)

# HƏQİQİ ATATÜRKÇÜLÜK

*Bir Osmanlı alicənabı, dindar lider və dahi dövlət adamı olaraq Atatürk*

# MÜNDƏRİCAT


**Giriş** ..... 7

**Bir Osmanlı alicənabı Atatürk** ..... 9

Yaxşı geyimi və süfrə ədəbi ..... 10

Atatürkün nümunəvi rəftarı və davranışları ..... 12

Atatürkün demokrat şəxsiyyəti ..... 13

**Atatürkün üstün şəxsiyyəti** ..... 14

Operativ insan: Atatürk ..... 16

Atatürkün müstəqillik həvəsi ..... 18

Qərarlı və ətrafına ruh yüksəkliyi təlqin edən lider ..... 20

Təvazökarlıq sahibi bir dahilik ..... 23

**Dininə könüldən bağlı lider** ..... 26

Atatürkün Peyğəmbər əfəndimizə duyduğu heyranlıq ..... 30

Atatürk materialist deyil ..... 32

**Ən böyük Türk milliyətçisi Atatürk** ..... 33

**Atatürkün diqqət çəkdiyi təhlükə: Kommunizm** ..... 37

**Atatürkün Türk ordusuna verdiyi əhəmiyyət və dəyər** ..... 43

Atatürkün mədəni şəxsiyyətini əbədi olaraq yaşadan təşkilat: Türk Silahlı Qüvvələri ..... 47

Zabitlərimiz dəqiq təhsillə yetişdirilməkdədir ..... 50

**Xarici ölkələrdən Atatürkün üstün şəxsiyyəti** ..... 51

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə

edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

Atatürkün qurduğu Cümhuriyyətin usanmaz gözətçiləri olaraq, Onun mirasını gərəyi kimi daşıya bilmək üçün, "Həqiqi Atatürkçülüyün" necə olmasını doğru qavramaq lazımdır. Bu əhəmiyyətli həqiqətin qavranması hər şüurlu Türk fərdi üçün böyük vəzifə və məsuliyyətdir.



Bəzi ideoloji kütlələr və qaranlıq mənfəət mərkəzləri Atatürkü və Atatürkçülüyü həqiqi şəxsiyyətindən uzaqlaşdırmaq arzusundadırlar. Bu surətlə, Ulu Öndərin Türk xalqı üzərindəki dərin sevgi və hörmətini, yol göstərici və nümunə təşkil edici xüsusiyyətini istismar edərək, öz mənfəət və gözləntiləri istiqamətində qərəzli şəkildə təhrif edilmiş Atatürk imici yaratmağa çalışmaqdadırlar. Bu böyük şəxsin mənəvi şəxsiyyətini öz qaranlıq əməlləri istiqamətində istifadə etmək istəmirlər.

Həmin kütlələrin bu mövzudakı israrlı səyləri o qədər irəli səviyyəyə çatmışdır ki, Atatürk guya dinə qarşı, kommunist və materialist biri olaraq göstərilməyə çalışılmışdır. Bundan əlavə, Atatürkün materialist olduğu müdafiə olunarkən, dindar olmaqla Atatürkçü olmaq sanki tamamilə bir-birinə zidd anlayışlar olaraq qarşıya qoyulmuşdur.



Hiyləgər mərkəzlərin bu cür oyunlarına aldanmamaq üçün, ən doğru və həqiqətləri öyrənməyin ən qısa yolu, Atatürkü və onun göstərdiyi yolu etibarlı qaynaqlardan öyrənməkdir. Atatürkün Uca Türk Millətinə yol göstərən qanun və düşüncələri, istər öz sözlərindən, istərsə də onu yaxından tanıyan və sağlığında onu görmüş insanlar tərəfindən bizlərə çatmışdır.

Hər şeydən əvvəl bu həqiqət çox yaxşı bilinməlidir ki, qatı bir Türk milliyyətçisi və səmimi bir müsəlman olan Atatürk, milli mübarizənin hər mərhələsində kommunizm və materializm kimi boş sözlərin qarşısında yer almışdır.

Etibarlı qaynaqlardan da açıq şəkildə aydın olduğu kimi Atatürk, müasir və mədəni şəxsiyyətə sahib, eyni zamanda da milli mədəniyyətinə möhkəm şəkildə bağlı, sadə və səmimi dindar, mənəviyyatından heç vaxt imtina etməyən, həqiqi Osmanlı bəyəfəndisi idi.

Məhz bu kitabın məqsədi də, Atatürkü bu tərəfləri ilə tanıtmaqdır. Türk insanını Atatürkün həqiqi şəxsiyyəti və fikirləri haqqında şüurlandırmaq və “Həqiqi Atatürkçülüyü” xatırlatmaqdır. Eyni zamanda Atatürkün və onun qanunlarının ən yaxın təqibçisi və qoruyucusu olan Türk ordusunun üstün əxlaq və xarakterini, “Həqiqi Atatürkçülüyün” günümüzdəki ən gözəl və canlı nümunəsi olaraq bizlərə göstərməkdədir.

# BİR OSMANLI ALİCƏNABI ATATÜRK

> *"Mən zorakı və insafsız davranmağı bilmirəm. Mən qəlbləri qıraraq deyil, qazanaraq hökm etmək istəyərəm."*

*Mustafa Kamal Atatürk*

## Yaxşı geyimi və süfrə ədəbi

Atatürk, aydın, düşüncəyə hörmətli, sadə bir ailə mühitində yetişmiş tam bir Osmanlı bəyəfəndisidir. Atatürkü mühüm bir Osmanlı bəyəfəndisi edən xüsusiyyətlərindən biri də geyiminə göstərdiyi diqqət və bu mövzuda sahib olduğu böyük zövqü idi. Atatürk, çox təmiz geyinən, geydiyini özünə yaraşdıran, qəşəng, qüvvətli, gümrah bir insan idi.



> *"Yaz günləri həmişə incə boz şalvar ilə qolları qısa ipəkli və ya kətan köynək geyərək gəzərdi. Bu paltarla çıxdığı zaman da ayaqlarına corabsız ayaqqabı geyərdi". ("Atatürkün xüsusiyyətləri", səh. 100)*

Atatürkün sahib olduğu geyim zövqü günümüzdəki stilistlərinin də diqqətini cəlb etmişdir. Necə ki, məşhur Türk stilist Faruk Saraç, Atatürkün ölümündən 60 il sonra, Atatürkün kostyumlarını arxiv fotoşəkillərindən araşdırmış və iki illik bir çalışma nəticəsində Onun geyim zövqünü ortaya qoyan moda nümayişi təşkil etmişdir. Məşhur stilist bu hadisəni peşə həyatının ən əhəmiyyətli hadisəsi olaraq xarakterizə etmiş və Atatürkün geyim zövqünə və geyimindəki detallara olan heyranlığını açıq şəkildə ifadə etmişdir.

Böyük dövlət adamı Atatürkün həqiqi bir bəyəfəndi olduğunu göstərən xüsusiyyətlərindən biri də süfrə ədəbinə verdiyi əhəmiyyət idi. Süfrəsi Atatürkün ən böyük zövqlərindən biri idi. Çox müntəzəm, çox diqqətli olduğu üçün, süfrənin də çox müntəzəm olmasını istəyərdi. Onun üçün süfrəyə oturarkən hər şeyin yerli yerində, düzgün olmasına xüsusilə diqqət yetirərdi. Süfrənin tənzimində, süfrə örtüsündə, qablarda, çəngəl və bıçaqlarda bir əyrilik, bir səhv görsə, bunları şəxsən özü düzəldər, ondan sonra süfrəyə oturardı.

Bu nizama sadəcə öz evində deyil, qonaq getdiyi başqa yerlərdə də diqqət yetirərdi. Süfrə, Atatürkün qərar və düşüncələrinin bir növ diqqət nöqtəsi, müdavimlərinin isə sanki bolluq qaynağı idi.

Atatürkün süfrəsi bir yemək süfrəsi, bir əyləncə süfrəsi deyil, bir növ akademiya, sanki bir növ məktəb idi. Sabiha Gökçen, Atanın bu xüsusiyyətini belə izah etmişdir:



*"Bu bilinməlidir ki, Qazi Paşanın süfrəsi heç vaxt bir əyləncə aləmi yeri, zaman keçirmə, vaxt öldürmə yeri deyildi. O bu süfrəni sanki bir məktəb vəziyyətinə salmışdı. Dünya problemlərinin, yurd problemlərinin, elmin, fəlsəfənin, sənətin, insanlıq idealının və mədəni Türk xalqının gələcəyinin səhərə qədər müzakirə edildiyi məktəb idi bu süfrə... Aydınlıqlarla, yaxşı niyyətlərlə dolu bir süfrə." ("Atatürkün izində bir ömür belə keçdi", Sabiha Gökçen, səh. 55)*

*"Bununla birlikdə süfrə, bəzilərinin hesab etdikləri və təlqin etdirmək istədikləri kimi, bütün dövlət işlərinin müzakirəsi yeri deyildi. Atatürk, süfrəsində dedi-qodu mövzularından danışılmaq da heç vaxt icazə verməzdi." ("Atatürkün xüsusiyyətləri", səh. 100)*

*"Axşam süfrəsində xoş söz demək istədiyi beş-on yoldaşını ətrafına yığmaq, onlarla danışmaq, söhbət etmək və beləcə şirin bir gecə keçirmək əvəzolunmaz əyləncəsi idi. Onlarla keçmiş şeylərdən bəhs edər, hadisələr nəql edər, sıra ilə xoş əhvalatlar danışar, macəralar izah edərdi. Bu, onun üçün bir zövq idi.*

Atatürk süfrə ədəbi ilə bərabər incə musiqi zövqünə də sahib idi. Atatürkün milli sazdan xoşu gələr, çox vaxt özü də mahnılarda oxuyaraq iştirak edərdi.

Ancaq ən gözəl əyləncə anında süfrədə belə qarşısında vəzifəli şəxslərdən birini görən kimi söhbəti, danışığı dərhal yarıda kəsər, "Məni istəyirdin?" deyə qalxıb gedərdi. Ölkə işlərini hər şeydən üstün tutardı." (İnqilab tarixi və sosiologiya baxımından Atatürk, səh. 138)

## Atatürkün nümunəvi rəftarı və davranışları



Atatürkün hərbi dahiliyi, dövlət adamlığı, bir ölkəni xilas edən Böyük Öndər və Ali Baş Komandan olması xüsusiyyətləri ilə bərabər Atatürkü bir insan olaraq ön plana çıxaran əhəmiyyətli xüsusiyyətləri var idi. Atatürkün yaxın dostu, Türkiyə böyük millət məclisinin Qaziantep vəkili Kılıç Ali Paşa, Atatürkün şəxsiyyətini belə yekunlaşdırmışdır:

> *"Atatürk, çox müşfiq, çox incə düşüncəli, çox vəfalı bir adam idi. Vəfasızlara, vəfasızlıqlara qarşı son dərəcə inciyər və kədər duyardı. Yaxınlarının, sevdiklərinin xüsusi, hətta ailəvi dərdlərini dinləyər, sanki bir ata şəfqəti ilə onlara çarələr axtarar, təsəlli edərdi. İnsan onun hüzuruna çıxaraq dərdlərini danışdıqdan sonra rahatlayar, ürəyi hüzurla dolaraq, böyük bir fərəhlik içində yanından çıxardı.*

Atatürk, heç kimin, hətta düşmənlərinin belə iztirabına, çətinlik çəkməsinə heç vaxt icazə verməzdi." ("Atatürkün xüsusiyyətləri", səh. 71)

> *"Atatürk çox səbirli bir adam idi. Bəzən süfrəsində, özü ilə qonaqları arasında, deputatlarla, yoldaşları ilə mübahisə şəklinə yaranan elə münaqişələr olardı ki, onun icazə və dözümündən cürət alınaraq göstərilən daşqınlıqlara səbir və dözüm göstərə bilmək üçün, ancaq və ancaq Mustafa Kamal olmaq lazım idi. Bu səbir və dözüm ona məxsus, ona yaraşan bir üstünlük idi." ("Atatürkün xüsusiyyətləri", səh. 72)*

> *"Atatürk ikiüzlü, riyakar, yaltaq insanlardan xoşu gəlməzdi. Heç kimin qeybət etməsinə, yaxud bir-birinin əleyhində dedi-qodu etməsinə və bunu edən ədəbsizliyə dözə bilməzdi. Onun hüzurunda bu və ya o, filan və ya filan əleyhində dedi-qodu etmək kimin həddinə idi? Belə bir hal hadisə baş verdiyi təqdirdə, dərhal o iki insanı bir yerə gətirər və üzləşdirərdi." ("Atatürkün xüsusiyyətləri", səh. 80)*

## Atatürkün demokrat şəxsiyyəti



Atatürk şəxsiyyət olaraq həmişə demokrat bir insan oldu. Həmişə xalqın içində keçən həyatı buna ən gözəl nümunədir. Açıq danışmağı, sərbəst münaqişəni həmişə sevdi.

> *"Atatürkün böyük üstünlüklərindən biri də dövlət və inqilab işlərini yoldaşları ilə müzakirə və münaqişə etməsi idi. Atatürk bu münaqişələrdən çox həzz duyardı. O, qeyri-adi zəkasına, böyük fikir qüvvəsinə, hadisələri təhlil etmə dərinliyinə söykənməklə birlikdə, başqalarının fikir və mütaliələrinə də qiymət verərdi. Onun ən qüvvətli tərəfi, ən böyük qüdrəti, bəlkə məsləhət edə bilməsi və məsləhətin sonunda öz bənzərsiz məntiqini hadisələrə hakim etməsi idi." ("Atatürkün xüsusiyyətləri", səh. 73)*

> *"Diktator rolunu mənimsəməmişdir. Həqiqi tənqiddən xoşu gəlirdi. Süfrəsi bəzən böyük mübahisələrə səhnə olmuşdur. Hərçənd, təlqin etmək istədiyi fikirlərdə həmişə müvəffəq olmuşdur; lakin, bu fikirlər həmsöhbətlərinə qəbul etdirdikdən sonra, yəni bir diktator abu-havası vermədən, icra edilmişdi." ("Atatürk bir dövrün açılışı", akademik Sədi Çay, səh. 18)*

> *"Atatürk, məclisə qarşı diktator rolunu mənimsəməmiş, inandırma metodu ilə məclisdən müsbət qərarlar ala bilmək üçün çox vaxt insan taqətindən çox səy göstərmişdir." ("Atatürk bir dövrün açılışı", akademik Sədi Çay, səh. 112)*

*Necə ki, özünün bu xüsusiyyətini belə yekunlaşdırmışdır:*

> *"Mən diktator deyiləm. Hərçənd mənim arzu edib də edə bilməyəcəyim bir şey yoxdur. Çünki, mən zorakı və insafsız davranmağı bilmirəm. Mən qəlbləri qıraraq deyil, qazanaraq hökm etmək istəyərəm." ("Atatürk bir dövrün açılışı", akademik Sədi Çay, səh. 33)*

# ATATÜRKÜN ÜSTÜN ŞƏXSİYYƏTİ

> *“Bu günə qədər əldə etdiyimiz müvəffəqiyyət, bizə ancaq inkişafa və sivilizasiyaya yol açmışdır... Bizə və bizdən sonra gələnlərə düşən vəzifə, bu yol üzərində tərəddüd etmədən irəliləməkdir.”*

*Mustafa Kamal Atatürk*



Cümhuriyyət tarixi boyunca Ulu Öndər Atatürk haqqında saysız əsərlər qələmə alınmış, bir çox konfranslar, seminarlar və çıxışlar təşkil edilmiş, bir çox şərh və qiymətləndirmələr edilmişdir. Əlbəttə Atatürk çox böyük bir komandir, güclü bir dövlət adamı, qərarlı bir inqilabçıdır. İstər öz milləti, istər bütün dünya millətləri üçün çox böyük bir qəhrəman, bənzərsiz siyasi dahidir.

Həqiqətən də bütün bu xüsusiyyətlər Atatürkü tanımaqda son dərəcə təyin edici ünsürlərdir. Ancaq bütün bunlarla bərabər Atatürkün güclü şəxsiyyətini və mədəni şəxsiyyətini təyin edən, onun insani və sosial tərəfini ortaya qoyan üstün xarakterik xüsusiyyətləri də var: təvazökarlığı, tolerantlığı, sülhsevərliyi və birləşdirici şəxsiyyəti, ağıllı və emosionallıqdan uzaq quruluşu, milli əxlaq anlayışı, dininə qarşı olan həssaslığı, geyiminə və üst-başına, təmizliyinə və baxımına, incəsənət və estetikaya, süfrə ədəbinə verdiyi əhəmiyyəti bunlar arasında saya bilərik.

Məhz bu hissədə Atatürkün bu mədəni şəxsiyyətini, sosial və bəşəri tərəfdən ələ alacaq, onun üstün xarakterik xüsusiyyətlərinə toxunaraq hər Türk insanının nümunə götürməli xüsusiyyətlərinə yer verəcəyik. Bununla birlikdə hələ də indiki vaxtda Atatürkün bu üstün xüsusiyyətlərini üzərində yaşadan və yaşatmağa da qərarlı olan şanlı Türk ordusunun bənzərsiz hərbi şəxsiyyətindən nümunələr verəcəyik. Atatürkün, qiymətli Silahlı Qüvvələr mənsubları üzərində təzahür edən mühüm xüsusiyyətlərini ələ alacağıq.

Burada əhəmiyyətli olan nöqtə isə son hədəfin, Atatürkün müstəsna şəxsiyyətinin vətəndaşlıq şüuruna varmış hər Türk fərdi tərəfindən nümunə götürülməsi və yaşanacaq hala gəlməsidir. Çünki, 70 milyona çatan gənc və dinamik əhalisi ilə, nəhəng addımlarla böyüyən iqtisadiyyatı ilə, Adriatikdən Çin Səddinə qədər uzanan mədəni təsir sahəsi ilə, ən böyük çalxalanmaların belə sarsıda bilmədiyi nümunəvi daxili sabitliyi ilə Türkiyə, heç şübhəsiz ki, 21-ci əsrə damğasını vuracaq ölkələr arasındadır. Belə bir idealın içində əlbəttə millət olaraq nümunə götürüləcək bir xarakterin əldə edilməsi lazım olduğu da aydındır. Məhz bu nöqtədə Böyük Öndərin müstəsna

şəxsiyyəti, hər mövzuda olduğu kimi Türk insanına nümunə olmağa və işıq tutmağa davam edəcək.

## Operativ insan: Atatürk

Atatürkün bəlkə də ən əhəmiyyətli xüsusiyyəti operativ insan olmasıdır. Yəni düşündüklərini sadəcə sözdə qalmaması, onu reallaşdırmaq üçün dərhal hərəkətə keçib ortaya konkret bir şey qoymuş olmasıdır. Buna görə, Avropalıların "Xəstə adam" deyə xarakterizə etdiyi bir milləti ayağa qaldırmışdır. Ortaya qoyduğu və bir araya gətirib qaynaşdırdığı qanunlarla, ölkə qaranlıqdan aydınlığa çıxmış və firavan Türkiyənin təməlləri atılmışdır. İçindəki coşğun vətən sevgisi və hər zaman yoxluq içində belə müvəffəqiyyəti hədəfləyən "Kuva-i Milliyə Ruhu" ölkəyə əvvəl hərbi, sonra da sosial və iqtisadi sahələrdə bir çox zəfərlər qazandırmışdır.



Atatürk, ölkə problemlərini həll edərkən həmişə ağlın və elmin tələblərinə görə hərəkət etmişdir. Hadisələri geniş və detallı düşünmüş, sadə hədəflər arxasında deyil, gələcək nəsilləri belə rahat və hüzur içində yaşadacaq köklü həllər axtarmışdır. Hər zaman vətənin və millətin mənfəətlərini güdmüş, heç vaxt öz rahatlığını axtarmamışdır.

*"Bu günə qədər əldə etdiyimiz müvəffəqiyyət, bizə ancaq inkişaf və sivilizasiyaya yol açmışdır... Bizə və bizdən sonra gələnlərə düşən vəzifə, bu yol üzərində tərəddüd etmədən irəliləməkdir" deyən Atatürk, özündən sonra gələcək yeni nəsillərə düşüncə və qanunları çərçivəsində getmə vəzifəsini vermişdir.*

Bu gün vətənin və millətin xeyri adına yola çıxanlardan sadəcə Atatürkün açdığı yolda gedənlərin müvəffəqiyyət əldə etdikləri bir həqiqətdir. Ölkəmizin məsələlərinə ən həqiqi yanaşmalar və çıxarılan ən sağlam həll yolları yenə Atatürkün çəkdiyi çərçivədə şəkillənməkdədir.

Elə isə, Atatürkü və Atatürkçülüyü ancaq keçmişdə yaşanmış parlaq hadisə olaraq düşünmək, bəzi bəzəkli sözlərlə tərifləmək həm yetərsiz, həm də çox səhvdir. Burada əhəmiyyətli olan Türk Millətinin hər sahədə müasirləşməsinin reseptini ehtiva edən Atatürkçülüyün praktiki olaraq həyata keçirilməsidir.

Ölkəmiz artıq yeni bir əsrə hazırlanır. Hədəfimiz millət olaraq müəyyəndir: Dünya üzərində ən inkişaf etmiş və müasir dövlətlər içində layiq olduğumuz yeri almaq. Türkiyə bunu bacaracaq gücə, ağla və qaynağa artıqlaması ilə sahibdir. Edilməsi lazım olan tək şey, Atatürkün illər əvvəl ortaya qoyduğu qanun və düşüncələrlə yoxluqdan ortaya çıxardığı müasir Türk Dövlətini, yenə eyni qanun və düşüncələrə daha da qüvvətlə sarılıb böyük sürətlə dövrümüzün irəlisinə daşımaqdır. Türkiyə bunun Atatürk ilə bərabər vaxtında öhdəsindən gəlmiş və sanki bir Türk

İntibahı yaşamışdır. Bu gün də Onun qanun və düşüncələrinə sadiq qalacaq səmimi Atatürkçülərlə bu müvəffəqiyyətin daha da çoxunu göstərə biləcəyinə inancımız tamdır.

## Atatürkün müstəqillik həvəsi



Atatürkün və Atatürkçülüyün əhəmiyyətini qavraya bilmək və səmimi bir Atatürkçü ola bilmək üçün hər şeydən əvvəl Onun həyatını araşdırmaq, nələr etdiyini, nəyi hansı düşüncə və ruh halı içərisində reallaşdırdığını yaxşı analiz etmək lazımdır.

Onun düşüncə və islahatlarının təməlini araşdırdığımızda bunun ilk olaraq "tam müstəqillik və azadlıq" qanununa əsaslandığı dərhal gözə dəyməkdədir.

Mustafa Kamal hələ tələbəlik illərində müstəqil millət olmadan müasir dövlətin qurula bilməyəcəyini başa düşmüş və azadlığın olmadığı mühitdə yaşamaqdansa hər cür təhlükəyə sinə gərərək müstəqil millət üçün döyüşməyi gözə almışdır. Bu səbəblə vətən torpaqlarını işğal etmək istəyən qüvvələrə qarşı amansız mücadilə vermiş, heç vaxt Türk Millətinin iradəsini bağlayacaq idarəetmə formalarına razı olmamışdır. Başqa ölkələrin boyunduruğu altına girmiş bir millətin zamanla tarixdən silinəcəyini bilərək, "Mən yaşaya bilmək üçün mütləq müstəqil bir millətin övladı kimi qalmalıyam. Milli istiqlal məncə bir həyat məsələsidir" demişdir.

Əsgərlik illərində Suriyada vəzifəli ikən gizli şəkildə gəldiyi Selanikdə, hərbi məktəbdə müəllimlərindən olan Haqqı Baha (Pars)ın evində yoldaşları ilə etdiyi bir yığıncaqda bunları söyləmişdir: "...Millət zülm və despotizm altında məhv olur. Azad olmayan bir məmləkətdə ölüm və süqut vardır. Hər tərəqqinin və qurtuluşun əsası azadlıqdır."

Bu sözlər hələ o illərdə Mustafa Kamalın qurmağa hazırladığı dövləti nələr üzərinə inşa edəcəyinin ilk işarələrini verirdi.

Mustafa Kamal "ya istiqlal, ya ölüm" ifadəsi ilə heç bir şəkildə imtina etməyəcəyini göstərdiyi müstəqilliyi elə içinə həzm etmişdi ki, "azadlıq və müstəqillik mənim xarakterimdir" deyərək sanki onu özünün bir parçası halına gətirmişdi.

Atatürkün müstəqillik anlayışı sadəcə siyasi yöndən müstəqilliyi deyil eyni zamanda hərbi, iqtisadi və mədəni müstəqilliyi də ehtiva etmişdir. O, tam müstəqilliklə, öz-özünə kifayət edə bilən, müdafiəsindən texnologiyasına, kənd təsərrüfatından iqtisadiyyatına qədər hər sahədə xarici ölkələrə möhtac olmadan, heç bir güzəşt etmək məcburiyyətində olmadan ayaqda dayana bilən bir struktur nəzərdə tutmuş və belə demişdir: "İstiqlal tam deyildiyi zaman, təbii siyasi, maliyyə, iqtisadi, hüquq, hərbi, mədəni və s. hər barədə istiqlalı tam və sərbəstliyi tam deməkdir. Bu saydıqlarımın hər hansı birində istiqlaldan məhrum olmaq, millət və məmləkətin istiqlalından həqiqi mənada məhrum olmaq deməkdir."

Yüksək dahiliyi ilə gələcəkdə sadəcə siyasi tərəfdən müstəqil olmanın yetərli ola bilməyəcəyini başa düşən Ulu Öndərimiz, müxtəlif imkansızlıqlara baxmayaraq ölkəmizin iqtisadi yöndən də

müstəqilliyini təmin edəcək sənaye həmlələrini başlatmış və millətimizi ortaq mədəniyyət kasasında əridib qaynaşdırmaq üçün milli şəxsiyyət meydana gətirmə səylərini göstərmişdir.

Atatürkün tam müstəqillik anlayışının nə qədər məqsədəuyğun olduğunu bu gün yaşadığımız dünyaya baxdığımızda dərhal müşahidə edə bilirik. Artıq ölkələr güclərini müharibə yolu ilə başqa dövlətlərin torpaqlarını işğal edərək deyil, tətbiq etdikləri iqtisadi və mədəni siyasətlərlə ortaya qoymaqda və bu şəkildə millətlərin müstəqilliyini təhdid edər hala gəlməkdədirlər.

Ölkəmizin belə bir təhlükədən qorunması, ancaq Atatürkün illər əvvəl ortaya qoyduğu tam müstəqillik anlayışını ürəkdən mənimsəməsi və onun etdiyi və göstərdiyi əsasların qərarlı şəkildə tətbiqi ilə mümkün olacaq.

Müstəqillik kimi sülh də Atatürkün şəxsiyyətinin əhəmiyyətli bir parçası idi. Atatürk dünya tarixinin gəlmiş keçmiş ən böyük əsgərlərindən biridir. Həyatının böyük bir hissəsi cəbhələrdə keçirmiş, bir əsgərin sahib ola biləcəyi ən yüksək mövqedə yer almış, ən ağır məsuliyyətləri üzərinə götürmüşdür. Ancaq bu böyük əsgər eyni zamanda sülhün əhəmiyyətini hər kəsdən daha yaxşı bilməkdədir. Necə ki, "Yurdda sülh, dünyada sülh" sözləri onun sülhü ancaq Türk Millətinin rifahı üçün deyil, bütün dünya millətlərinin rifahı və hüzuru üçün ən əhəmiyyətli faktor olaraq gördüyünü ortaya qoymaqdadır. Atatürk sülhü, rifaha və səadətə aparan yol olaraq adlandırmaqdadır:

> *"Sülh, xalqları rifaha və səadətə çatdıran ən yaxşı yoldur... Məmləkətimizi hər gün daha çox qüvvətləndirmək, hər sahədə hər cür ehtimallara qarşı qoyacaq vəziyyətdə saxlamaq və dünya hadisələrinin bütün mərhələlərini böyük oyanıqlıq içində izləmək, sülhsevər siyasətimizin söykənəcəyi əsasların başlanğıcıdır." (Atatürkün nitq və bildirişləri, cild 1, səh. 412)*

## Qərarlı və ətrafına ruh yüksəkliyi təlqin edən lider

Atatürk ən çətin anlarda belə dayanıqlılığından və inancından heç bir şey itirməz və davamlı olaraq ətrafına ruh yüksəkliyi təlqin edərdi. Bunun ən əhəmiyyətli nümunələrindən biri Samsuna ayaq basdıqdan sonra, Ərzurum Konqresinə qədər olan dövrdə görülmüşdür. Xalqın və rəhbərlərin böyük ümidsizliyə qapıldıqları anda, Onun qətiyyəti və davasına olan inancı müvəffəqiyyətə gedən yolda tək işıq olmuşdu. Mustafa Kamal Paşa bu çətin dövrdə bir tərəfdən komandirlərlə təmas qurur, onlarla ediləcək müdafiə üçün fikir və qərar birliyi təmin etməyə çalışırdı. Həmçinin bəlkə də ən çətin vəzifəni bacarmağa cəhd göstərir, yorğun və pərişan vəziyyətdə olan xalqın əhvalını və etibarını qüvvətləndirməyə çalışırdı. Xüsusilə Ərzurum Konqresindən əvvəlki işləri bu mövzuda möhkəm təməllər atmasını təmin etdi və ətrafına, iş yoldaşlarına və xalqa ruh yüksəkliyi verməyi bacardı.

Necə ki, Atatürkün silah yoldaşı İsmət İnönü Paşa, İkinci İnönü zəfərindən sonra, qazandığı zəfərdən ötrü təbrik edən Mustafa Kamal Paşaya cavab olaraq bir məktub yazmışdır. Bu məktubda əldə edilən zəfərin arxasındakı əsas gücün, Atatürkün ruhundakı ataş olduğunu, bu ataşda millətin maddi və mənəvi bütün qabiliyyət və qüvvətlərinin toplandığını bu sətirlərlə ifadə etmişdir:

> *“Türkiyə Böyük Millət Məclisi rəisi Mustafa Kamal Paşa həzrətlərinə: Zülm və diktatura dünyasının ən zalım hücumlarına qarşı tək və təəccüblü qalan millətimizin maddi və mənəvi bütün qabiliyyət və qüvvətlərini ruhundakı odla bir yerə toplayan və hərəkətə gətirən Böyük Millət Məclisinin rəisi Mustafa Kamal Paşa! Qəhrəman əsgərlərimiz və zabitlərimiz ön cəbhədə çiyin-çiyinə vuruşan diviziya və korpus komandirləri adından təqdir və təbriklərinizə fəxrlə təşəkkür edirəm.”*

Atatürkün dayanıqlılığının bir başqa nümunəsi Sakarya döyüşündən əvvəl yaşanan hadisələrdə görülmüşdür. Bu hadisələr Atatürkün zamanı aşan bir dahiliyə sahib olduğunu, mövcud şərtləri analiz etmə gücünü və millətinə olan sarsılmaz inancını da bir daha ortaya qoymuşdur.

Sakarya döyüşündən əvvəl hadisələr belə baş vermişdir: 1920-ci ilinin iyul ayında Yunan İşğal Qüvvələri Geyve Boğazından Afyonqarahisara qədər uzanan xətt boyu mövqelənmiş Türk ordusuna qarşı böyük hücuma başlayırlar. Mustafa Kamal düşmənə qarşı daha əlverişli şərtlərdə döyüşmək üçün orduya Sakaryanın şərqinə çəkilmə əmrini verir. Bu taktiki çəkilmə və Yunan ordusunun irəliləmələri bütün yurdda və Türkiyə Böyük Millət Məclisində böyük həyəcan oyandırmışdır. Hərb sənətindən anlamayan və Atatürkün hərbi dahiliyini haqqı ilə təqdir edə bilməyənlər bu çəkilməni böyük bir məğlubiyyət hesab etmişdilər. Türkiyə Böyük Millət Məclisində mübahisələr və hiddət son həddə çatmışdı ki, Mustafa Kamalın inanc və dayanıqlılığı bu mübahisələrə son nöqtəni qoydu. Bir bildiriş ilə xalqın və millət vəkillərinin əhvalları düzəldi və özlərinə olan etibarları təzələndi. Atatürkün təlqin etdiyi bu inanc və güvən duyğusu qısa müddətdən sonra böyük zəfərə vəsilə olacaqdı. Bu bildiriş belə idi:



*"Düşmənin irəliləməsi ehtimalına görə xalqın, qəti şəkildə tərəddüd və şübhə etməsinə gərək yoxdur. Düşmənin Anadolu və içlərinə doğru uzanmaq istəyən qolları məzarlarına yaxınlaşır; bu yeni səfər, düşmənin ölüm səfəridir. Allahın köməyi, yaxındakı hadisələr bu nəticəni göstərəcək."*

Sakarya döyüşündən əvvəl Böyük Millət Məclisi, Mustafa Kamalın ordunun başına keçməsini istədi. Çünki millətin və məclisin ümidi Onun şəxsində birləşmişdi. Nəticədə 5 avqust 1921-ci il tarixli bir qanun ilə Məclis bütün səlahiyyətlərini Mustafa Kamala təhvil verdi və Ona baş komandanlıq statusu verdi. Beləcə Ərzurum Konqresi əsnasında bütün status və vəzifələrdən çəkilmiş olan Mustafa Kamal Paşa, milli iradə ilə və Məclis rəisi olaraq hərbidəki ən məsuliyyətli lakin ən şərəfli vəzifəyə, Ali Baş Komandanlığa yüksəlmiş oldu.

Osmanlı Dövlətində, Ali Baş Komandanlıq həmişə padşaha aid olmuş və ordular Ali Baş Komandan vəkilləri tərəfindən idarə edilmişdir. Mustafa Kamal isə milli qəhrəman olaraq Türk tarixi boyunca milli iradəyə söykənərək Ali Baş Komandanlıq mövqeyinə yüksələn ilk Türk komandirdir.

Mustafa Kamal bu şərəfli vəzifə ilə əziz Türk ordusunun başına keçdi və 22 gün 22 gecə sürən Sakarya müharibəsi boyunca ordunu idarə etdi.

Döyüş əsnasında atından yıxılan və qabırğa sümüyü sınan Mustafa Kamal, yaralı olaraq xərək üzərindən hərəkatı idarə etdi. Bu böyük komandirin cəsarəti, fədakarlığı və inancı əsgərlərə ruh yüksəkliyi verdi. Bu vəziyyət, əmrində olan qəhrəman əsgərlərin özünə duyduqları etibarla birləşdiyində, o vaxt üçün heç kimin ehtimal vermədiyi bir möcüzə reallaşdı. Hərbi sursat və imkan olaraq çox geridə olan Türk ordusu, Qərbin bütün imkanlarını arxasına almış Yunan ordusunu məğlubiyyətə uğratdı.

Atatürkün qərarlı və öndər şəxsiyyətinin insanlar üzərində yaratdığı təsir Qurtuluş müharibəsinin qazanılmasından illər sonra belə bir çox xarici jurnalist və dövlət adamını ona heyran etmişdir. Bu jurnalist və dövlət adamlarından bəziləri Atatürk haqqında bunları söyləmişlər:

Fransız jurnalist Madam Golis;

*"Ani olaraq fosfor kimi işıldayan, yenə birdən-birə öz içində dönən qəribə baxışları var idi. Güclü şəxsiyyəti, hər şeyi qavramadakı sürətlə, əl hərəkətləri ilə, özünü müəyyən edir. Mustafa Kamal, həqiqətən gənc, təmiz, candan inanmış, xalqını idarə etmək üçün doğulmuş bir insandır." ("Atatürk bir dövrün açılışı", akademik Sədi Çay, səh. 333)*

*İngilis yazar Ravlinson;*

> *“Qüvvətli xarakterli və dünya xalqları arasında öz xalqını, haqlı qüruru üzərinə qəti fikirli bir adam olaraq heç vaxt fərdi şöhrət üçün çalışmadı. Yurdunun mənfəətlərini hər şeyin üstündə tutan və milləti üçün hər faydalı nəticəyə çatmağa çalışan bu şəxs gücünü damarlarına işləyən vəzifə duyğusundan alır.” (“Atatürk bir dövrün açılışı,” akademik Sədi Çay, 333)*

*İtalyan nazir Soforça;*

> *“Həyatının sonuna qədər xalqının mütləq etibarı ilə qurduğu dövlətin başında qalan müzəffər komandirin şəxsiyyəti, misli görülməmiş bir xarakter nümunəsidir.” (“Atatürk bir dövrün açılışı”, akademik Sədi Çay, 334)*

*İngilis səfiri Persi Loren;*

> *“Fikri o qədər iti və sağlam idi ki, hadisələrin gedişi xalqın duyğuları və Türkiyənin işgüzar əlaqələrindən heyrətləndirici bir şəkildə doğru çıxardı.” (“Atatürk bir dövrün açılışı”, akademik Sədi Çay, 334)*

## Təvazökarlıq sahibi bir dahilik

Mustafa Kamalın ən böyük xüsusiyyətlərindən biri də, yaşadığı dövrün zamanı qabaqlayan dahiliyə və qəhrəmanlıqlarla dolu həyata sahib olmasına baxmayaraq, son dərəcə təvazökar həqiqi bir bəyəfəndi olması idi. Həyatının hər anında, dünya millətlərini heyrətləndirən və möcüzə olaraq adlandırılan zəfərlər qazandıqdan sonra belə, bu müvəffəqiyyətdəki ən böyük payın ona aid olmasına baxmayaraq, müvəffəqiyyəti və edilən tərifləri heç vaxt özünə götürməmiş və həmişə ətrafındakı silah yoldaşlarına, əziz Türk ordusu və Türk Millətinə aid etmişdir.

Atatürkün təvazökarlığını ortaya qoyan sənədlərdə şəxsinin bir başqa xüsusiyyəti də ön plana çıxmaqdadır. Bu xüsusiyyət söyləmək istədiyi sözü ən təəccüblü sözlərlə, ən gözəl mənanı meydana gətirəcək formada izah etmədəki ustalığıdır. Atatürk, qarşısındakı insanı həmişə ən yüksək şəkildə şərəfləndirmiş və bunu edərkən söz ifadə etmə sənətindəki ustalığından istifadə etmişdir.

Təvazökarlığı, xitabdakı ustalığı və bu ustalığı insanlara ən müsbət formada təsir edəcək şəkildə istifadə etməsi, dünya tarixində çox az insanda görülən həqiqi bəyəfəndilik xüsusiyyətidir.

Məsələn birinci İnönü zəfərindən sonra silah yoldaşı İsmət Paşaya yazdığı təşəkkür məktubunda bu xüsusiyyətini açıq şəkildə ortaya qoymuşdur;

> *"İnönü müharibə meydanında, Metris Təpədə Qərb Cəbhəsi Komandiri və Baş qərargah rəisi General İsmətə: Dünya tarixində sizin İnönü meydan müharibələrində üzərinizə aldığınız vəzifə qədər ağır vəzifə qəbul etmiş komandirlər azdır.*

Düşmən qəzəbli istilası, əzm və hamiyətinizin qayalarına başını çarparaq parça-parça oldu. Adınızı, tarixin şərəf səhifələrinə yazan və bütün milləti haqqınızda sonsuz minnət və təşəkkürə sövq edən böyük zəferinizi təbrik edərkən üstündə dayandığınız təpənin, sizə minlərlə düşmən ölüləri ilə dolu bir şərəf meydanını seyr etdirdiyi qədər, Millətimiz və özünüz üçün parlaq yüksəlmə ilə dolu gələcək üfüqünə də baxdığını və hakim olduğunu söyləmək istəyərəm."

Ancaq Atatürkün vurğulamaqda və ucaltmaqda ən həssas olduğu mövzu Uca Türk Millətinin fədakarlığı, cəsarəti və Qurtuluş müharibəsində göstərdiyi sədaqət oldu. Necə ki, qazanılan bənzərsiz zəfərin memarı Mustafa Kamal, bu zəfərin Anadolu xalqının əsəri olduğunu hər fürsətdə ən gözəl şəkildə dilə gətirdi:

> *"Düşünmədilər ki, Türklərin vətən sevgisi ilə dolu olan sinələri özlərinin məlun ehtiraslarına qarşı həmişə dəmirdən bir divar kimi yüksələcək. Necə ki, millətimiz düşmənin hazırlıqlarına qarşılıq vermək üçün, heç bir fədakarlıqdan çəkinmədi. Ordumuzu möhkəmləndirmək üçün pul, insan, silah, heyvan, avtomobil nəhayət hər nə lazımdırsa sevə-sevə verdi. Avropanın ən mükəmməl vasitələri ilə təchiz edilən Konstantin ordusundan, ordumuzun təchizat etibarilə də geri qalmaması və hətta ona üstün gəlməsi kimi inanılmaz möcüzəni Anadolu xalqının fədakarlığına borcluyuq." (Türkiyə Böyük Millət Məclisi Protokolları, cild 12, səh. 210)*

Atatürk eyni təvazökarlığı 30 avqust Zəfərindən sonra da göstərmiş və əldə edilən bu böyük zəfərin arxasında Türk ordusunun komandanlığının və Türk zabitlərinin olduğunu ifadə etmiş və böyük zəfəri Türk Millətinin bir abidəsi olaraq ifadə etmişdir. Bənzərsiz dahilik sahibi olan bu böyük komandir üçün fəxr ediləcək tək xüsusiyyət, Türk millətinin övladı olmaq və bu millətin ordusunda Ali Baş Komandan olaraq xidmət etməkdən başqa bir şey deyildi:

> *"Hər mərhələsi ilə düşünülmüş, hazırlanmış, idarə edilmiş və zəfərlə nəticələndirilmiş olan bu müharibə; Türk ordusunun, Türk zabitlərinin və komandanlığının yüksək qüdrət və qəhrəmanlığını tarixdə bir daha təsbit edən çox böyük bir əsərdir. Bu əsər, Türk Millətinin ölməz abidəsidir. Bu əsəri meydana gətirən bir millətin övladı, bir ordunun baş komandanı olduğum üçün, sonsuza qədər məsud və bəxtiyaram."*

Atatürkün sözlərində diqqət yetirilməsi lazım olan əhəmiyyətli bir nöqtə də, sözlərində Türk Millətinin və Türk ordusunun bir bütün olaraq işlənməsi və millət və ordusu arasındakı əlaqə və köməkləşmədən bəhs etməsidir. Bu əlaqə yalnız Qurtuluş müharibəsində görülməmiş, Türk Ordusu tarixində və Cümhuriyyət sonrasındakı hər dövrdə də görülmüşdür. İndiki vaxtda da Türk xalqının qəhrəman ordusuna qarşı göstərdiyi həssaslığın və hər Türk vətəndaşının ürəyində Türk ordusunun xüsusi bir yeri olmasının səbəbi, tarix boyu davam edən və Atatürkün də sözlərində vurğulamış olduğu bu qopmaz əlaqədir.

> *"Atatürk qurtuluş müharibəsindən sonra hökmdar, diktator, xəlifə və daha bir çox şeylər ola bilərdi, lakin böyük adam ola bilmək üçün onun parlaq ünvanlara ehtiyacı yox idi. Hazırladığı və öz ölçüsünə görə qurduğu bir Cümhuriyyətin başçısı olduqdan sonra, çəkdiyi mədəniyyət yolunda getməyə başladı. Özü şübhəsiz taxta çıxa bilərdi. Lakin bəsirəti buna mane oldu. Qürursuz idi, nümayişi sevməz, özünü tərifləyə bilməzdi. Hər gün bir az daha filosof oldu və insanlar arasında dəyəri artdı." ("Atatürk yolu", Otomarsan Mədəniyyət Nəşri, səh. 115)*

Bu böyük insanın sahib olduğu təvazökarlıq, yaxın ətrafı və digər insanlarla olan birbaşa əlaqələrində daha da dəqiq bir şəkildə ortaya çıxırdı. Cümhuriyyət dövrü rəssamlarından İbrahim Çallının Atatürklə etmiş olduğu söhbət bu təvazökarlığın açıq bir nümunəsi olmuşdur.

İbrahim Çallının o gün yaşadığı təəssüratları Həsən Cəmil Çambel belə izah edir:

Çallı: "Böyük rəisimiz, məni hüzurunuza qəbul etdiniz. Və məni danışdırdınız, siz nə böyüksünüz ki, bizi dinləyirsiniz."

Atatürk: "Mən sizi dinləyərəm, sizin danışmaq nə qədər haqqınızdırsa, mənim də bu böyük millətə söyləmək, özümü ona dinlətmək haqqımdır."

Çallı: "Sizə malik olmaq, bu gözəl tale Türk Millətinə nəsib oldu."

Atatürk: "Eyni millətin uşaqlarının bir yerdə olaraq bir-birini tanımaları, sevmələri və yüksək hisslərlə eynilə tabe olmaları gözəl bir şeydir. Əgər siz gözəl incəsənət mənsubu olaraq bunu təsbit etsəniz bütün millətə və bütün insanlığa xidmət etmiş olarsınız."

Çallı: "Böyük Rəisi Cumhur..."

Atatürk: "Xeyr mən bu axşam sizinlə Cümhuriyyət başçısı olaraq deyil, vətəndaş olaraq danışıram. Bu məmləkətdə və hər məmləkətdə, həmişə bir cumhur başçısı vardır. Mən sizinlə indi danışarkən bir vətəndaş sifətini düşünürəm."

Çallı: "Siz bu milləti xilas etdiniz."

Atatürk: "Bu bəhsi burada burax, indi Qazi Mustafa Kamal yox, sizinlə bərabər şərtlər altında danışa bilərəm."

> *"Sözləriniz gözəldir amma bitdi, tək sənmi söyləyəcəksən. Sənətçilər hesab edərlər ki, tək özləri həyəcanlanarlar. Ətraflarındakı insanların özlərindən çox həyəcanlandıqlarını unudarlar."*

*Çallı: "Böyük Paşam, bir əsərim var, Fındıqlı sarayında durur."*

Atatürk: "Fındıqlı sarayı haradır? Mən sarayları xoşlamıram. Dövlət Başçısı olmaq məcburiyyətində, İstanbula getdiyimdə Dolmabahçe deyilən soyuq bir yerdə qalıram. Və mən orada narahat oluram. Bir evdə otursam daha rahatlayaram." ("Atatürk bir dövrün açılışı", Akademik Sədi Çay, səh. 349)

Atatürk bütün həyatını cəbhələrdə mübarizə aparmaqla keçirmiş, bir ölkənin qurtuluş müharibəsinə özü tək istiqamət vermiş, o günə qədər heç bir Türkə nəsib olmayan səlahiyyət və məsuliyyətlə Türk ordusunun başına keçmiş və böyük bir zəfərə imza atmış bənzərsiz dövlət adamıdır. Ancaq bu möhtəşəm və qəhrəmanlıqlarla dolu tarixə sahib olan insan, gündəlik həyatında nümayişdən uzaq sakit bir həyat tərzini seçmişdir. Atatürkün qurtuluş müharibəsindən sonrakı illərdəki həyatı onun bu xüsusiyyətini göstərməkdədir.

Atatürk Ankarada olduğu zamanlarını Marmara Köşkündə keçirər, günorta yeməklərini orada yeyər, sıravi bir vətəndaş kimi ferma ilə məşğul olar, bəzən söhbət etmək üçün yaxın yoldaşlarına qonaq gedərdi.

Atatürk, İstanbulda ikən motosikletlə boğaz gəzintisindən, Anadolu sahili ilə adaya getməkdən xoşu gələrdi. Ən böyük zövqü millətin arasına qarışaraq, onların əyləncəsində iştirak etmək idi. Hər kəs bilərdi ki, Atanın ən xoşbəxt olduğu dəqiqələr milləti ilə birlikdə olduğu anlar idi.

# DİNİNƏ KÖNÜLDƏN BAĞLI LİDER

> *"Türk Milləti daha dindar olmalıdır, yəni bütün sadəliyi ilə dindar olmalıdır demək istəyirəm. Dinimə, şəxsən həqiqətə necə inanıramsa, buna da elə inanıram."*

*Mustafa Kamal Atatürk*

Atatürk, İslam əxlaqını və dinimizin öhdəçiliklərini hələ ailə ocağında ikən öyrənmiş, təhsil həyatı boyu da bu məlumatlarını gücləndirərək artırmışdır. "Mülayim-müasir-dindar" formanın ən gözəl nümunəsi də, ən müvəffəqiyyətli tətbiq edicisi də dünyəvi Cümhuriyyətimizin qurucusu Böyük Öndər Atatürkdür. Ulu Öndər, hər zaman mürtəceliklə mübarizə edərkən İslamı ucaltmış; bu səbəbdən bu ikisi arasındakı ayrımı ən doğru şəkildə etmişdir. Xanəgahlar, türbələr və zaviyələr onun dövründə bağlanmış, amma ilk Türkcə Quran tərcüməsi də yenə onun dövründə nəşr olunmuşdur. Türk insanının ehtiyaclarını və xüsusiyyətlərini çox yaxşı bilən, mürtəceliyə, doqmatizmə hər zaman qarşı olan Atatürk, Türk Millətini dinin əslinə yönəltməyi məqsəd qoymuş və bu gün millət olaraq əldə etmək istədiyimiz quruluşu hər tərəfli təcəlli etdirmişdir.

Şübhəsiz ki, din Böyük Öndərin də diqqət çəkdiyi kimi demokratiyanın və milli bütünlüyümüzün imtina edilməz ehtiyacıdır. Bir millətin fərdlərini bir yerdə tutan ən güclü amil olan din, ailənin, əxlaqın və dövlət müəssisələrinin də davamını təmin edən ən əhəmiyyətli vasitədir.



Dinin var olmadığı və ya dini dəyərlərin ortadan qalxdığı bir cəmiyyətdə, bunun qaçınılmaz nəticəsi olaraq ailə, əxlaq və dövlət anlayışları da etibarlılığını itirəcək və qısa müddət ərzində ortadan qalxacaq. Belə bir prosesin baş verməsi, tarixi və mədəniyyəti nə qədər keçmişə söykənirsə söykənsin bir milləti bir-birinə bağlayan milli və mənəvi bütün əlaqələrin parçalanmasını, anarxiyanın baş qaldırmasını və cəmiyyətin bölünməsini qaçınılmaz hala gətirəcək.

Məhz bütün bu səbəblərə görə, cəmiyyət tərkibinin imtina edilməz parçası xüsusiyyətini daşıyan din quruluşunun davamiyyətinin təmin edə bilməyən bir xalqın sosioloji və elmi baxımdan ayaqda durması mümkün deyil. İstər insan, istər cəmiyyət baxımından dinin lazımlı bir sahə olduğunu ifadə edən, siyasi sahədə etdiyi saysız islahatla bu sağlam dünyagörüşünü geniş kütlələrə yaymağı hədəfləyən Böyük Öndər Atatürk, Türk Millətinin dindar olmasını və dini dəyərlərini mühafizə etməsini "Din lazımlı bir sahədir. Dinsiz millətlərin davamı qeyri-mümkündür"; "Din var və lazımdır." ("Yaxınlarından xatirələr", Asaf İlbay, səh. 102)

sözləri ilə təşviq etmişdir. Millətini, batil inanclardan təmizləyib, həqiqi dinə yönəltməyi qarşısına məqsəd qoymuşdur. Bunun üçün də Quranın asan şəkildə oxunub başa düşülməsini təmin etmək məqsədi ilə Türkcəyə tərcümə edilməsi əmrini vermişdir:

> *“Sonra Quranın tərcümə olunmasını əmr etdim. İlk dəfə türk dilinə tərcümə olunur. Həzrət Məhəmmədin həyatına dair bir kitabın da tərcümə olunmasını əmr etdim.” (“Atatürkün təməl fikirləri”, Fethi Naci, səh. 55)*

Quranın Türkcəyə çevrilməsi əmrini verərkən, Atatürkün istəyi müsəlman millətinin imanının güclənməsidir. Bunu ifadə etdiyi sözləri belədir:

> *“Məscidlərin müqəddəs minbərləri xalqın ruhi, əxlaqi qidalarına ən yüksək, ən səmərəli qaynaqlardır. Minbərlərdən xalqın anlaya biləcəyi dillə ruh və beyinə xitab edilməklə müsəlmanların bədəni canlanar, beyni təmizlənər, imanı qüvvətlənər, ürəyi cəsarət tapar.” (“Atatürkün nitq və bildirişləri”, cild 1, səh. 225)*

Böyük Öndər, həqiqi dinin təməlini və müsəlmanların mövzunu hansı meyarlara görə qiymətləndirmələri lazım olduğunu 7 fevral 1923-cü il tarixində, Balıkəsirdəki Paşa Məscidində verdiyi xütbədə belə xitab etmişdir:

> *“Allah birdir, şanı böyükdür. Allahın salamı, sevgisi üzərinizə olsun. Peyğəmbərim əfəndimiz Allah tərəfindən insanlara dini həqiqiləri çatdırmağa məmur və elçi seçilmişdir. Bunun təməl əsası, hamımız tərəfindən bilinməkdədir ki, Uca Qurandakı mənası açıq olan ayələrdir. İnsanlara bolluq ruhu vermiş olan dinimiz son dindir. Ən mükəmməl dindir. Çünki dinimiz ağla, məntiqə, həqiqətə tamamilə yatqın və uyğun düşür.” (“Atatürkün nitq və bildirişləri”, cild. 2, səh. 93)*



Atatürk, İslam dininin tamamilə elmə və məntiqə uyğun bir din olduğunu bir başqa sözündə də belə ifadə etmişdir:

> *“Bizim dinimiz ən məqbul və ən təbii bir dindir. Və ancaq buna görə son din olmuşdur. Bir dinin təbii olması üçün ağla, texnikaya, elmə və məntiqə uyğun olması lazımdır. Bizim dinimiz bunlara tamamilə uyğundur... İslamın sosial həyatı içində heç kimin, xüsusi bir sinif halında varlığını davam etdirmə haqqı yoxdur. Özlərində belə bir haqq görənlər dini qaydalara uyğun hərəkət etmiş olmazlar. Bizdə ruhanilik yoxdur, hamımız bərabərik və dinimizin qaydalarını bərabər olaraq öyrənməyə məcburuq” (“Atatürkün nitq və bildirişləri”, 1959, cild 2, səh. 90)*

Böyük Öndər Atatürk, Türk Millətinin dindar olmasını və dini dəyərlərini mühafizə etməsini də, tez-tez vurğulamışdır. Həmçinin, Atatürkün Osmanlı Dövlətinin süqutunu dinə bağlayan, Türk

düşmənlərinə cavabı isə qəti şəkildə olmuşdur:

> *"Düşmənlərimiz, bizi dinin təsiri altında qalmış olmaqla ittiham edir, tənəzzülü və süqutumuzu buna bağlayırlar; bu səhvdir. Bizim dinimiz heç vaxt qadınların, kişilərdən geri qalmasını tələb etməmişdir. Allahın əmr etdiyi şey, müsəlman kişi ilə, müsəlman qadının bərabər şəkildə din öyrənərək təhsil almasıdır. Qadın və kişi elm və təhsili axtarmaq və harada tapsa oraya getmək və onunla öyrənmiş olmaq məcburiyyətindədir. İslam və Türk tarixi araşdırılsa görülər ki, bu gün özümüzü müxtəlif qayda ilə bağlanmış zənn etdiyimiz şey yoxdur. Türk sosial həyatında qadınlar elmi cəhətdən təhsil və bilik almaqda və digər mövzularda kişilərdən qətiyyən geri qalmamışlar. Bəlkə daha da irəli getmişlər." ("Atatürkün nitq və bildirişləri", 1959, cild 2, səh. 86)*

Atatürk dini məsələlər haqqındakı fikirlərini öyrənmək istəyən Fransız jurnalist Maurice Pernoya yenə qəti şəkildə bu cavabları vermişdir:

M. Perno: Bu halda yeni Türkiyənin siyasətində dinə zidd heç bir meyllilik və mahiyyət olmayacaq?

Atatürk: "Siyasətimizin dinə zidd olması bir tərəfə, din baxımından əskik belə hiss edirik."

M. Perno: Əsilzadə şəxsiyyətiniz, düşündüklərini bizə daha yaxşı izah edə bilərmi?

Atatürk: "Türk Milləti daha dindar olmalıdır, yəni bütün sadəliyi ilə dindar olmalıdır, demək istəyirəm. Dinimə, şəxsən həqiqətə necə inanıramsa, buna da elə inanıram. Şüura müxalif, tərəqqiyə mane olan heç bir şey ehtiva etmir. Halbuki Türkiyə istiqlalını verən bu Asiya milləti içində daha qarışıq, süni, batil inanışlardan ibarət bir din daha var. Lakin bu cahillər, bu acizlər vaxtı gəldiyində aydınlanacaqlar. Əgər işığa yaxınlaşa bilməsələr özlərini məhv və məhkum etmişlər deməkdir. Onları xilas edəcəyik." ("Atatürk və din təhsili", Ahmet Gürbaş, Diyanət Işləri Nazirliyi yayımları, səh. 32)

Atatürk hər tərəfli olduğu kimi dindarlığı ilə də millətinə ən gözəl nümunə olmuşdur. Ulu Öndər, dindar şəxsiyyətinin bir göstəricisi olaraq din adamlarına qarşı hər zaman səmimi şəkildə hörmət etmişdir.

Cümhuriyyətin Diyanət İşlərinin İlk naziri Rıfat Börekçi, Atatürkün ona hörmət və ehtiramını belə izah etmişdir:

> *"Atanın hüzuruna girdiyimdə məni ayaqda qarşılayardı. Utanıb, əzilib-büzülüb, "Paşam məni xəcalətli edirsiniz" dediyim zaman "Din adamlarına hörmət göstərmək müsəlmanlığın zərurətlərindəndir" buyurardı. Atatürk, şəxsi mənfəətləri üçün müqəddəs dinimizi siyasətə alət edən cahil din adamlarını sevməzdi." ("Atatürk və din təhsili", Ahmet Gürtaş, Diyanət İşləri Nazirliyi yayımları səh. 12)*

Atatürk Quran oxumasına da son dərəcə əhəmiyyət vermişdir. Hafiz Zeki Çağlarman Atatürkün bu cəhətini belə izah etmişdir:

*"Atatürkün bacısı Makbulə xanımla uzun illər qonşuluq etdik. Hər il Ramazan ayı yaxınlaşdıqda Atatürk bacısına; "Makbulə, Ramazan gəlir, anamıza xətm oxutmağa laqeyd yanaşma" deyər və xətm oxuyacaq hafizə hədiyyə edilmək üzrə zərf içində pul verərdi." ("Din, cəmiyyət və Kamal Atatürk", Ercüment Demirer, səh. 10)*

## Atatürkün Peyğəmbər əfəndimizə duyduğu heyranlıq

Atatürkün Qurani-Kərimə duyduğu dərin sevgi və hörməti, İslam dininin ən saf şəkli ilə yaşanmasına olan inancı onun dindar yönünü hər dövrdə ortaya çıxarmışdır. Hər zaman həqiqi din ilə batil inanclarla dolu mövhumatçılığı dəqiq şəkildə ayıran Atatürk, bir çox çıxışında, səmimi və içdən bir şəkildə Allahdan, İslamdan, Qurandan hörmət və bağlılıqla bəhs etmişdir. Hz. Peyğəmbərimizi təriflәmiş və Türk Millətinə, həqiqi dinə sarılmağı və daha dindar olmağı tövsiyə etmişdir. Allaha yönəlmədə Hz. Məhəmmədi rəhbər göstərmişdir:

> *"Bütün dünyanın müsəlmanları Allahın son peyğəmbəri Hz. Məhəmmədin göstərdiyi yolu izləməli və verdiyi təlimatları tam olaraq tətbiq etməlidir. Bütün Müsəlmanlar Hz. Məhəmmədi nümunə götürməli və onun kimi hərəkət etməlidir; İslamiyyətin hökmlərini olduğu kimi yerinə yetirməlidir. Çünki ancaq bu şəkildə insanlar xilas ola bilər və inkişaf edə bilərlər." ("Atatürk", Nedim Senbai, A. Ü. Dil, tarix, coğrafiya yayım., səh. 102, 1979)*

Hz. Məhəmmədi təriflәyərək, Onu nümunə götürən Atatürk, Hz. Məhəmmədin peyğəmbərliyinə qəti olaraq iman etmişdi. Hz. Məhəmmədə duyduğu heyranlığı və Onun peyğəmbərliyini həyəcanla izah etdiyi bir sırada yanında olan M. Şemseddin Günaltay, Atanın həmin anda vəziyyətini belə izah etmişdir:

> *"... Atatürkün dənizlərdən rəng alıb rəng verən gözləri, masanın üzərində silsiləli xəritəyə qondu və məni qolumdan tutaraq masanın baş tərəfinə çəkib barmağını bir nöqtəyə qoydu. Bu, öz əlləri ilə çəkdiyi hərbi xəritə idi və Hz. Məhəmmədin böyük Bədir Cəngini addım-addım göstərirdi. Hz. Məhəmmədə və Onun peyğəmbərliyinə qədər, böyük hərbi dahiliyinə heyran olan bənzərsiz Sakarya qalibi, Bədr qalibini göylərə çıxararkən, "Onun haqq peyğəmbər olduğundan şübhə edənlər, bu xəritəyə baxsınlar və Bədr dastanını oxusunlar" deyə həyəcanlandı.*

*Atanın son sözü bu olmuşdu:*

- Hz. Məhəmmədin bir ovuc imanlı müsəlmanla məhşər kimi izdihamlı və həddindən artıq zəngin Qureyş ordusuna qarşı Bədr müharibəsində əldə etdiyi zəfər, fani insanların qazancı deyil, Onun Peyğəmbərliyinin ən qüvvətli dəlili məhz bu döyüşdür. ("Atatürk və din təhsili", Ahmet Gürbaş, Diyanət Işləri Nazirliyi yayımları, səh. 28)

Atatürkün Hz. Məhəmmədə duyulacaq sevgini belə təsvir edir:

> *"Böyük bir inqilab yaradan Həzrəti Məhəmmədə qarşı bəslənilən sevgi, ancaq onun ortaya qoyduğu fikirləri, əsasları qorumaqla təcəlli edə bilər." (Şemsettin Günaltay, Ülkü jurnalı, sayı 100, səh. 4)*

Atatürk, dinimizin tam mənası ilə və əslinə uyğun olaraq yaşanmasını və millətimizə doğru, müasir, xurafatlardan təmizlənilmiş din anlayışını mənimsətməyi hədəfləmişdir. Heç bir

mövhumata qaçmadan, Quranın müasir dünyanı təsvir etdiyini çox dəqiq şəkildə mənimsəmişdir.

Açıq şəkildə aydın olmaqdadır ki, həqiqi mənada dindarlıq, həyəcanlı radikalların, mühafizəkar, bağlı fikirli insanlarda deyil; Atatürkün təsvir etdiyi mülayim, insancıl, müasir quruluşda özünü göstərməkdədir.

Böyük Atatürkün, İslam dinini, Quran-i Kərimi, Hz. Peyğəmbəri və dini müəssisələri tərifləyən bütün bu sözləri, Onun dinimizə olan içdən bağlılığını göstərən konkret və müzakirə edilməz sənədlərdir.

# Atatürk materialist deyil

Bura qədər izah etdiyimiz kimi Atatürk Allah və axirət inancına sahib, dindar bir insandır. Bəzi çevrələr, bizə bu cənnət vətəni və Cümhuriyyəti əmanət edən, "Həqiqətə necə inanıramsa, dinimə də elə inanıram" deyən Atatürkü din düşməni olaraq göstərmə səyindədirlər. Öz siyasi fikirlərinə dəstək təmin etmək və Türk Millətinin Atatürkə olan bağlılığını sarsıtmaq məqsədi ilə, Atatürk haqqında əsassız dedi-qodular yaymağa çalışmaqda, üstəlik yalanlarını milyonlara ötürməyə çalışmaqdadırlar.

Ancaq, Atatürk hər hansı bir şəxs deyil. Sözləri, fikirləri, tövsiyələri, milyonlarla insana rəhbərlik edən, yol göstərən tarixi şəxsiyyətdir. Bu həqiqəti qulaqardı edərək, Atatürk haqqında əsassız məlumatlar və şərhlər verməyə cəsarət edənlər ümumiyyətlə materialist dünya görüşünə sahib çevrələrdir. Bunlar, Atatürkü özlərinə görə din düşməni kimi tanıdıb öz materialist və marksist ideologiyalarına pay çıxarmağa çalışan kəslərdir.

Bu çevrələrin inandıqları, heç bir elmi dayağı olmayan və tamamilə həqiqətdən kənar uydurmalardan ibarətdir. Əslində bu çevrələr necə bir çıxılmaz vəziyyətdə olduqlarının fərqindədirlər. Ancaq bu uydurma ideologiyadan imtina etmək əvəzinə, tam əksinə bir yol izləməkdədirlər. Atatürk kimi fikirlərinə hər kəsin dəyər verdiyi nümunəvi bir adamın adından istifadə edərək, ideologiyalarını gücləndirməyə çalışmaqdadırlar.

Bunların unutduqları bir şey var; dindarlıq, milliyyətçilik, milli əxlaq inancı, millət və bayraq sevgisi kimi üstün şəxsiyyət xüsusiyyətləri, ancaq milli və mənəvi dəyərlərə dərin bir bağlılıqdan qaynaqlanır. Bu dərəcə milliyyətçi hisslər daşıyan, son dərəcə dindar, mentalitetə bu qədər ürəkdən bağlı olan, vətəni və bayrağı uğrunda bütün həyatını ortaya qoyan, həyatı boyu millətinin xoşbəxtliyi üçün çalışan, ailə quruluşunun müqəddəsliyini müdafiə edən bir adamın materialist ola bilməyəcəyi ortadadır.

Şübhəsiz ki materialistlər, vətəninə, bayrağına və millətinə deyil, öz şəxsi mənfəətlərinə bağlıdırlar. Milliyyətçi deyil internasionalistdirlər. Ailə təşkilatını qorumağı deyil yıxmağı hədəfləyərlər. Millətlərinin xoşbəxtliyi üçün deyil, öz fərdi xoşbəxtliyi üçün çalışarlar.

Yalnız bu belə, Ulu Öndərimizin, ateist və materialist olmadığını, milli- mentalitetə ürəkdən bağlı olduğunu göstərməyə kifayətdir.

# ƏN BÖYÜK TÜRK MİLLİYƏTÇİSİ ATATÜRK

> *"Türk Milləti milli duyğunu, insani duyğu ilə yan-yana düşünməkdən zövq alar. Vicdanında milli duyğunun yanında, insani duyğunun şərəfli yerini həmişə mühafizə etməklə fəxr edər."*

*Mustafa Kamal Atatürk*

Atatürk ölkəmizə yeni çöhrə qazandırarkən çox əhəmiyyətli bir nöqtəni həmişə göz qarşısında saxlamışdır. O da Türkün öz mənliyini itirmədən, öz şəxsiyyətini, mədəniyyətini unutmadan yeniliklərə uyğunlaşa bilməsi, onları öz milli mədəniyyəti içində həzm edə bilməsidir. Əksinə bir vəziyyətin millətimizi daxildən çürüdəcəyini bilən Atatürk, Türk Millətini millət edən ünsürləri; yəni tarixini, dilini, dinini yəni qısaca öz mədəniyyətini hər zaman yaşadacaq köklü tədbirlər almış və belə demişdir:

> *"Türk milliyyətçiliyi, irəliləmə və inkişaf yolunda və beynəlxalq əlaqələrdə bütün müasir millətlərlə eyni xətdə və onlarla uyğunluq içində getməklə birlikdə, Türk cəmiyyətinin xüsusi xarakterlərini və başlı-başına müstəqil şəxsiyyətini gizli tutmaqdır."*



Atatürkün bu sözləri onun milliyyətçilik anlayışının açıq ifadəsidir. Bu milliyyətçilik bugünkü vətənimizin sərhədləri ilə çəkilən, yeni torpaqlara sahib olma həvəsindən təmizlənmiş, lakin müstəqil və azad yaşamağa qəti əzmli, dünya millətlərini ailə hesab edən, hər millətin haqlarına hörmətli, öz haqlarını və şərəfini qorumaqda qərarlı, başqa bir deyimlə "humanist Türk milliyyətçiliyi"dir. Atatürkün humanist Türk milliyyətçiliyini açıq şəkildə ifadə etdiyi sözləri belədir:



*"Türk Milləti milli duyğunu, humanist duyğu ilə yan-yana düşünməkdən zövq alar. Vicdanında milli duyğunun yanında humanist duyğunun şərəfli yerini həmişə mühafizə etməklə fəxr edər. Çünki Türk Milləti bilir ki, bu gün sivilizasiyanın uca yolunda müstəqil və lakin özləri ilə paralel olaraq getdiyi bütün mədəni millətlərlə qarşılıqlı humanist və mədəni əlaqədə olmaq əlbəttə inkişafımızın davamı üçün lazımlıdır və yenə məlumdur ki; Türk Milləti, hər mədəni millət kimi keçmişin bütün dövrlərində kəşfləri ilə, ixtiraları ilə mədəni dünyaya xidmət etmiş insanların, millətlərin dəyərini təqdir edər və xatirələrini hörmət ilə mühafizə edər. Türk Milləti, humanistlik aləminin səmimi ailəsidir." ("Mədəni məlumatlar və Atatürkün əl yazmaları", Afet İnan, səh. 21)*

Atatürk milliyyətçiliyinin humanist tərəfi ilə birlikdə, bir də Türkiyənin müstəqillik və azadlığını ən əziz vəzifə halına gətirmək kimi üstün cəhəti var. Bu milliyyətçilikdə Türk millətinin müstəqilliyi uğrunda gözə alına bilinməyəcək fədakarlıq yoxdur. Çünki, milliyyət duyğusu bir cəmiyyətdə fərdlərin özlərini bütünə bağlı etmələri və onun bir ünsürü olaraq görmələri və o millətin davamlılığı üçün varlıqlarını ortaya qoymağa hazır olmalarıdır.

Ulu Öndər heç bir zaman irqçilik təməlinə söykənən milliyyətçiliyi müdafiə etməmiş, həmişə mədəni milliyyətçiliyinin yəni mədəniyyət milliyyətçiliyinin tərəfdarı olmuşdur. Ortaq tarix və mədəniyyətə sahib olan insanımızı milli şüur altında birləşdirməyə çalışmışdır. Gənc Türkiyə Cümhuriyyətinin də ancaq bu şəkildə güclənə biləcəyini ifadə edərək "Biz birbaşa millətpərvərik; Cümhuriyyətimizin əsası Türk ictimaiyyətidir. Bu ictimaiyyətin fərdi nə qədər Türk mədəniyyəti ilə dolu olsa o ictimaiyyətə istinad edən Cümhuriyyət də qüvvətli olar" demişdir. Atatürk, bu nəcib və üstün milliyyətçilik anlayışını, "Mən türkəm deyən nə qədər xoşbəxtdir" ifadəsi ilə ölümsüzləşdirmişdir.

Atatürk, millətimizdə ortaq bir şüur meydana gətirmə səyləri göstərərkən, əsas olaraq çatmaq istədiyi hədəf mili birlik və bu birliyi sağlamlaşdırmaq olmuşdur. Çünki yaşadığı həyat ona, vətənə və millətə qarşı yönəldilən ən böyük təhlükənin, milli birlik və bərabərliyimizi pozaraq dövlətimizi yıxmaq istəyənlər olduğunu göstərmişdir. "Milli birlik duyğusunu mütəmadi olaraq və hər cür vasitə və tədbirlərlə inkişaf etdirmək milli məqsədimizdir" deyərək milli idealın tərifini vermişdir.

Buna görə Atatürk, tarix elminin təhsil proqramlarında geniş olaraq yer almasının tərəfdarı olmuşdur. Gənclərə və Türk Millətinə elmi şəkildə öyrədiləcək olan milliyyət anlayışı ilə, cəmiyyət həyatının daha şüurlu olacağına inanmışdır. Bu səbəblə insanların millətləri üçün çalışmaları və gələcək günlərin təhlükəsizliyini təmin etmək kimi təməl fikirlər üzərində haqlı olaraq dayanmaqdadır:

*"Millət sevgisi qədər böyük sevgi yoxdur. İstiqlaliyyət müharibəsində mənim də millətimə etdiyim bəzi xidmətlər olmuşdur deyə zənn edirəm. Lakin, bunlardan heç birini özümə aid etmədim. Edilənin hamısı millətin əsəridir dedim. Axtarılsa doğrusu da budur. Keçmişdə saysız mədəniyyət qurmuş bir irqin və millətin uşaqları olduğumuzu isbat etmək üçün, etməyimiz lazım gələn şeylərin hamısını etdiyimizi irəli sürməliyik. Bu günə və sabaha buraxılmış hələ bir çox böyük işlərimiz var. Elmi araşdırmalar da bunların arasındadır. Mənim yoldaşlarıma tövsiyəm budur: Şəxsiniz üçün deyil mənsub olduğumuz millət üçün əlbirliyi ilə çalışaq. İşlərin ən böyüyü budur." ("Atatürk haqqında xatirələr və sənədlər", Afet İnan, səh. 309)*



Atatürk, Türk milliyyətçiliyinin təməlinə oturtmağa çalışdığı milli əxlaqı da belə təyin etmişdir:





*"Həqiqətən də, əxlaq xüsusi fərdlərdən ayrı və bunların üstündədir, ancaq sosial, milli ola bilər. Millətin sosial nizam və sakitliyi, vəziyyəti və gələcəkdə rifahı, xoşbəxtliyi, hüzuru və toxunulmazlığı, sivilizasiyada irəliləməsi, yüksəlməsi üçün insanlardan hər mövzuda məlumat, səy lazım olduqda fədakarlığı tələb edən milli əxlaqdır. Mükəmməl bir millətin fərdləri milli əxlaqın tələblərini sanki mühakimə edilmədən vicdani və duyğusal səbəblə edilər. Ən böyük milli duyğu, milli həyəcan məhz budur.*

Millət analarının, millət atalarının millət müəllimlərinin və millət böyüklərinin evdə, məktəbdə, orduda, fabrikdə, hər yerdə və hər işdə millət uşaqlarına, millətin hər fərdinə bezmədən və mütəmadi olaraq verəcəkləri milli tərbiyənin məqsədi, məhz bu yüksək milli duyğunu sağlamlaşdırmaq olmalıdır.

Əxlaqın milli, sosial olduğunu söyləmək və toplum vicdanın bir ifadəsidir demək, eyni zamanda əxlaqın müqəddəs sifətini də tanımaqdır." (Afet İnan, "Mədəni məlumatlar və M. K. Atatürkün əlyazmaları", 1969, səh. 20-21)

Atatürkün milliyyətçiliyində bir cəmiyyətə bağlı olmaq və onun müstəqilliyi və azadlığı üçün ölümə qədər hər fədakarlığa hazır olmaq duyğusu kimi fəzilətlərin yanında vətən torpağı kimi obyektiv ünsürlər də ağırlıq təşkil etməkdədir. Bunun açıq dəlili, Türk torpaqları üçün canı bahasına başlatdığı, davam etdirdiyi və böyük bir zəfərlə nəticələndirdiyi İstiqlal müharibəsidir.

Bir insanın milli duyğu şüuru içində öz torpaqlarına sahib olması qədər gözəl bir duyğu yoxdur. Öz torpağına sahib olmaq duyğusu milliyyətçilik qanununun zəruri bir nəticəsidir. Mustafa Kamal da bu duyğuya bütün insanlara nümunə olacaq şəkildə sahib olmuş və bunu hərəkətləri ilə bərabər bu sözləri ilə ifadə etmişdir:

> *"Millətlər işğal etdikləri ərazinin həqiqi sahibi olması ilə birlikdə, bəşəriyyətin vəkilləri olaraq da o ərazidə olurlar. O ərazinin sərvət qaynaqlarından özləri istifadə edirlər və dolayısilə bütün bəşəriyyəti də faydalandırmaq kimi öhdəçilikləri var. Bu qanuna görə bundan aciz olan millətlər müstəqil olaraq yaşamaq haqqına layiq deyildirlər." (Karal, "Atatürkdən düşüncələr", 1956, səh. 45)*

Avropalıların "xəstə adam" deyə xarakterizə etdiyi bir milləti ayağa qaldıran böyük xilaskar Atatürk, içindəki böyük vətən sevgisi ilə hər zaman Türk millətinin müstəqilliyini hədəfləyərək ölkəni əvvəl hərbi sonra da sosial və iqtisadi sahələrdə zəfərdən zəfərə daşımışdır.

# ATATÜRKÜN DİQQƏT ÇƏKDİYİ TƏHLÜKƏ: KOMMUNİZM

> *"Biz nə bolşevik, nə də kommunist; nə biri, nə də digəri olmayıq. Çünki, biz millətpərvər və dinimizə hörmətkarıq."*

*Mustafa Kamal Atatürk*

Atatürk, millət reallığının və milliyyətçiliyin təməl ünsürlərini rədd və inkar edən marksizmə və kommunizmə qəti şəkildə qarşıdır. Ölkəni fəlakətə sürükləyəcək, siniflərə böləcək, mənfəət qruplarını qarşıdurmaya salacaq bu ideologiyaların hər zaman qarşısında yer almışdır. Atatürkün başlatdığı Türk İnqilabı doğuşundan etibarən bu təhlükələrlə qarşılaşmış, Bolşevik liderlər, Türkiyədə kommunist kəndli hərəkatın həyata keçirilməsini davamlı təşviq və təhrik etmişlər. Kommunistlər, Türkiyədə milli və müstəqil bir dövlətin qurulmasını istəməyiblər. Xarici İşlər Xalq Komissarı Çiçerin, hələ 13 sentyabr 1919-cu il tarixində, Sivas Konqresi sıralarında, Türk kəndlisinin kommunist olmayan idarəçilərə qarşı üsyan etməsini tövsiyə edərək, Türk hərəkatına qarşı davranış və düşüncələrini göstərmişdir.




Kommunizmin Türk İnqilabı üçün çəkinilməli və təhlükəli olduğunu, Böyük Atatürk müxtəlif vəsilələrlə fərqli zamanlarda ifadə etmişdir. Sivas Konqresindən dərhal sonra, Amerikalı general Harborda verilən 27 sentyabr 1919-cu il tarixli memorandumda Mustafa Kamal Paşa, Milli Hərəkatın məqsədini izah etmiş və kommunizmlə əlaqədar fikirlərini belə dilə gətirmişdir:

> *"Bolşeviklərə gəldikdə, bizim məmləkətimizdə bu doktrinanın heç bir şəkildə yeri ola bilməz. Dinimiz, adətlərimiz və eyni zamanda sosial bünyəmiz tamamilə belə fikrin yerləşməsinə uyğun deyil. Türkiyədə nə böyük kapitalistlər, nə də milyonlarla sənətçi və işçi var. Digər tərəfdən kəndli problemimiz yoxdur. Son olaraq, sosial baxımdan dini prinsiplərimiz bolşevizmi mənimsəməkdən bizi uzaq tutmaqdadır." ("Atatürkün qeydləri, teleqraf və bəyannamələri", IV., 1917-1938, Ankara, 1964, səh. 78)*

Həmçinin Atatürk, müxtəlif zamanlarda kommunizmi təhlükəli gördüyünü və heç vaxt bu qaranlıq sistemə keçid imkanı verməyəcəyini ifadə etmişdir. Atatürkün bu mövzudakı bir sözü belədir:

6 fevral 1921-ci il tarixində,

> *"Kommunizm sosial məsələdir. Məmləkətimizin vəziyyəti, sosial şəraiti, dini və milli ənənələrinin gücü, Rusiyadakı kommunizmin biz tərəfdən tətbiqinə uyğun olmadığı qənaətini təsdiq edər mahiyyətdədir." ("Atatürkün nitq və bildirişləri", cild 3, 2-ci nəşr, səh.20)*

*2 noyabr 1922-ci il tarixində,*

> *"Bu unudulmamalıdır ki, bu tərz idarə, bolşevik sistemi deyil. Çünki, biz nə bolşevik, nə də kommunist; nə biri, nə digəri olmayıq. Çünki, biz millətpərvər və dinimizə hörmətkarıq. Qısaca, bizim hökumətimiz tam demokratiya hökumətidir və dilimizdə bu hökumət xalq hökuməti deyə yad edilir." (A.k.ə, cild 3, 2-ci nəşr, səh. 20)*

*21 iyun 1935-ci il tarixində,*

> *"Türkiyədə bolşeviklik olmayacaq. Çünki, Türk Hökumətinin ilk məqsədi xalqa azadlıq və səadət vermək, əsgərlərimizə olduğu qədər, vətəndaş xalqımıza da yaxşı baxmaqdır." (A.k.ə, cild 3, 2-ci nəşr, səh. 99)*

Son dərəcə uzaqgörən insan olan Atatürkün həmişə olduğu kimi bu düşüncəsində də yanılmadığı açıq bir həqiqidir.



Necə ki, Rus idarəçilərin bu rejimi tətbiq etdikləri ilk illərdə, öz vətəndaşlarına belə necə zalımca davrandıqları bilinməkdədir. Kütlələr halında Rus xalqının qətl edildiyi həqiqəti, bütün dünyanın şahid olduğu bir hadisədir. Lenin və onu izləyən kommunist idarəçilər, SSRİ-ni meydana gətirən millətlərə bolluq, rifah və gözəl həyat vəd etmiş, ancaq verdikləri sözlərində durmamışlar. İnsanlara gözəl həyat gətirəcəyi iddiası ilə ortaya çıxan bu sistem, tətbiq olunduğu ölkələrin xalqlarına ölüm, əsarət və səfalətdən başqa bir şey gətirməmişdir.

Bütün bu hadisələri yaxından izləmiş olan Atatürk, 1932-ci ildə Amerikalı zabit Mac Arthurla etdiyi məsləhətləşmədə kommunizmlə əlaqədar düşüncələrini bütün açıqlığı ilə belə ifadə etmişdir:

*“Bu gün Avropanın şərqində bütün sivilizasiyaları və hətta bütün insanlığı təhdid edən yeni güc meydana çıxmışdır. Bütün maddi və mənəvi imkanlarını toplu şəkildə, dünya inqilabı məqsədi üçün səfərbər edən bu qorxunc güc, üstəlik Avropalılar və Amerikalılar tərəfindən hələ məlum olmayan, yeni siyasi metodlar tətbiq etməkdə və rəqiblərinin ən kiçik səhvlərindən belə mükəmməl şəkildə istifadə etməsini bilməkdədir. Avropada çıxacaq bir müharibənin əsas qalibi nə İngiltərə, nə Fransa, nə də Almaniyadır. Yalnız bolşevizmdir. Rusiyanın yaxın qonşusu və bu məmləkətlə ən çox döyüşmüş bir millət olaraq biz Türklər, orada cərəyan edən hadisələri yaxından izləyir və təhlükəni bütün açıqlığı ilə görürük. Oyanan Şərq millətlərinin düşüncə strukturlarını var gücü ilə istismar edən, onların milli ehtiraslarını oxşayan və kinləri təhrik etməsini bilən bolşeviklər, tək Avropanı deyil, Asiyanı da təhdid edən əsas güc halını almışdır.” (“Atatürkün nitq və bildirişləri”, cild 3, səh. 94-95)*

Böyük Öndər Atatürk Ali Fuat Cebesoya yazdığı məktubda kommunizm təhlükəsinə qarşı Türk Milləti adına duyduğu narahatlığı belə dilə gətirmişdir:



*“Kommunistliyin məmləkətimizdə deyil, hələ Rusiyada belə tətbiq qabiliyyəti haqqında açıq qənaətlərin hasil ola bilmədiyi aydın olmaqdadır. Bununla birlikdə içəridən və kənardan müxtəlif məqsədlərlə bu axımın məmləkətimizin içinə girməkdə olduğu və buna qarşı ağlabatan tədbir görülmədiyi təqdirdə millətin çox möhtac olduğu birlik və hüzurunu pozan vəziyyətlərin ortaya çıxması da imkan dairəsində görülmüşdü...” (31 oktyabr 1920, SD, IV, səh. 360-361, Ali Fuat Cebesoya yazdığı məktubdan)*

Atatürk, bütün dünyanı təhdid edən bu təhlükəyə qarşı, millətin düşüncələrində və sosial təşkilatlarda tətbiq olunacaq üsulları həll olaraq görməkdədir. Bu təhlükəyə qarşı nəzərdə tutduğu dəyişiklikləri isə öz sözləri ilə belə yekunlaşdırmaq mümkündür:

*“Rusiya istisna olmaqla bütün dünyada, hər insan mənfəəti və zərəri özünə aid olmaq üzrə həyatını nizamlayar. Sadəcə hər adama işlərində yeni qanuni vasitələr və hüquqlar verilər.” (“Mədəni məlumatlar və M. K. Atatürkün əlyazmaları”, Afet İnan, səh. 68)*

> *"Dövlət fərdin yerini ala bilməz, lakin, fərdin irəliləyişi və inkişafı üçün ümumi şərtləri göz qarşısında saxlamalıdır. Dövlət əli ilə ediləcək işlər, fərdin böyük qazanc gətirmədiyindən dolayı etməyəcəyi işlər və ya milli mənfəətlər üçün lazımlı olan iqtisadi işləri əhatə edir. Azadlığın və ölkə müstəqilliyinin təmin edilməsi və qorunması ilə daxili işlərin təşkil edilməsi necə dövlətin vəzifəsidirsə, dövlət vətəndaşların təhsili və sağlamlığı ilə də maraqlanmaq məcburiyyətindədir. Dövlət, məmləkətin asayişi və müdafiəsi üçün yollarla, dəmir yolları ilə, teleqrafla, telefonla, məmləkətin heyvanları ilə, hər cür nəqliyyat vasitələri ilə, millətin ümumi sərvəti ilə yaxından əlaqədardır. Məmləkət rəhbərliyində və müdafiəsində, bu saydıqlarımız, topdan, tüfəngdən, hər cür silahdan daha əhəmiyyətlidir... Xüsusi mənfəətlər əksəriyyətlə, ümumi mənfəətlərlə təzadlı olur. Bir də, xüsusi mənfəətlər, ən nəhayət rəqabətə söykənir. Halbuki, tək bununla iqtisadi nizam qurula bilməz. Bu fikirdə olanlar özlərini, bir ilğım qarşısında, aldadılmağa tərk edənlərdir... Bir də, fərdin şəxsi işləri, iqtisadi inkişafın əsas qaynağı olaraq qalmalıdır. Fərdin inkişafına mane olmamaq xüsusilə iqtisadi sahədəki azadlıq və təşəbbüslər qarşısında dövlətin öz fəaliyyəti ilə bir maneə yaratmamağı demokratiya prinsipinin əhəmiyyətli əsasıdır. ("Mədəni məlumatlar və M. K. Atatürkün əlyazmaları", Afet İnan, səh. 46-47)*

Türkiyəyə sosial, iqtisadi və mədəni istiqamət verməyi hədəfləyən Atatürk, hədəfini reallaşdırmada kommunizmi, xalqı üçün böyük təhlükə kimi görməsi xaricində həm də fərqli şəkildə qiymətləndirməmişdir. Çünki, bu qaydada fərd yox, dövlət var idi. O, "Fərdin haqqı fərdə, dövlətin payı dövlətə" deyirdi. Nə fərdi udan dövlət, nə dövləti istismar edən fərd olmalı idi. Bu səbəblə dövlətçilik qanununu əsas alırdı.

Bu düşüncələrinin əksinə yəni kommunizmin tətbiq olunması xalqın azadlığının əlindən alınması, ölkənin inkişafı əvəzinə yox olma mərhələsinə girməsi demək idi. Buna görə də, Atatürk kommunizmi əziz Türk Milləti üçün böyük təhlükə olaraq görmüşdür. Kommunizmin heç bir şəkildə, həyatını həsr etdiyi vətəninə girməsini istəməyən Atatürk Millətini bu böyük təhlükəyə qarşı xəbərdar etmişdir. Uca Atatürkün, "Kommunizm, Türk Dünyasının ən böyük təhlükəsidir. Hər görüldüyü yerdə əzilməlidir." (Faruk Şükrü Yersəl, Əskişəhər qəzeti, 1926) sözlərində Türk Millətinə etdiyi xəbərdarlıq açıqdır. Bu səbəblə Türk Milləti, kommunizmi ən böyük düşmən bilməyi və gördüyü hər yerdə əzməyi, Türklüyə qarşı mənəvi məsuliyyət olaraq qəbul etməkdədir.

Qaldı ki, Türk Millətinin üstün zəkasının şüurunda olan Atatürk, kommunizmin Türkiyədə heç bir zaman müvəffəqiyyətli ola bilməyəcəyini, şəxsən dəfələrlə ifadə etmişdir. Məsələn, 1935-ci ildə etdiyi bir çıxışında "Türkiyə heç vaxt bolşevik olmayacaq. Çünki Türk Hökumətinin ilk məqsədi xalqa azadlıq və xoşbəxtlik vermək, əsgərlərimizə olduğu qədər vətəndaş xalqa da yaxşı baxmaqdır." ("Atatürkün nitq və bildirişləri", cild 3, səh. 99) ifadələrini istifadə etmişdir.

Atatürk başqa çıxışlarında da kommunizmə qarşı olan qəti qərarını dəqiq şəkildə ortaya qoymaqdadır. Eyni zamanda Böyük Öndər kommunizmi, faşizm və nasizmlə birlikdə qiymətləndirərək bu mövzulardakı düşüncələrini də belə dilə gətirməkdədir:



> *"Biz böyük döyüşlər görmüş, böyük millətik... Amma döyüşçü deyil, sülhsevər fəlsəfəni mənimsəmiş bir millətik... Özümüzü dünyadan təcrid edə bilmərik. Dünya nemətlərinin imperialist ölkələr tərəfindən zamanla etinasız şəkildə paylaşıldığını və bu paylaşma əsnasında inkişaf etməmiş ölkələrin tarixdən silindiyini yaddaşlardan silmək qədər qəflət ola bilməz. Dünyanın bugünkü vəziyyəti heç də parlaq görünmür. Hər ölkə, gəncliyini bir başqa ideologiyaya sahib olaraq yetişdirmə səyi içindədir. İtaliya faşizm ideologiyasına dörd əllə sarılıb. Bu ölkənin diktatoru olan Mussolini ölkəsinin səkkiz milyon faşist gəncinin süngüsü üzərində yaşadığını çığırıb durur... Almaniyada Hitlerin yaradaraq inkişaf etdirməkdə olduğu nasizm də faşizmin başqa böyük təhlükəli bənzəridir. Hitler bir irqçidir. Diqqət edin, milliyyətçi demirəm, irqçidir deyirəm. Alman irqini ən üstün irq olaraq görən bir məcnundur. Bütünlüklə Alman gəncliyini arxasına almış, onlara bu idealı təlqin etmişdir. Moskvada oynanan oyun isə başqa cürdür. Stalin təkcə öz gəncliyinə deyil, dünya gəncliyinə kommunistlik ideologiyasını təlqin etməyə çalışır. Kommunizm təbliğatının, füqərası və cahili bir çox ölkələrdə necə asanlıqla tərəfdar yığdığı isə ortada olan bir həqiqətdir." ("Atatürkün izində bir ömür belə keçdi", Sabiha Gökçən, səh. 155)*

> *"...Xeyr. Nə kommunizm nə də faşizm... Bu iki ideologiya da məmləkətimizin, xalqımızın həqiqilərinə və xarakterinə heç vaxt uymaz. Bunu da dərhal əlavə edim ki, nə faşizmin, nə də nasizmin sonu yoxdur." ("Atatürkün izində bir ömür belə keçdi", Sabiha Gökçən, səh. 159)*

Bu sözlərdən də açıq şəkildə aydın olduğu üzrə, Atatürk açıq bəyanları ilə kommunizmi "ən böyük düşmən" elan etmişdir. Faşizmin də, kommunizmin də Türk Milləti içində sığınacaq tapa bilməyəcəyinə diqqət çəkmişdir. Millətinə, kommunist və ya faşist olmamağı, bu axımları hər görüldüyü yerdə əzməyi və kommunist ekspansionizmə qarşı Misak-ı Milli sərhədlərini qorumağı vəsiyyət etmişdir.

# ATATÜRKÜN TÜRK ORDUSUNA VERDİYİ ƏHƏMİYYƏT VƏ DƏYƏR

> *"Ordumuz, Türk birliyinin, Türk qüdrət və qabiliyyətinin, Türk vətənpərvərliyinin poladlaşmış ifadəsidir."*

*Mustafa Kamal Atatürk*

Vətəninə, azadlığına və şərəfinə düşkün olan Türk Millətinin milli varlığı və istiqlalı uğrunda göstərə bilməyəcəyi qüdrət və fədakarlıq yoxdur. Bu güvən ilə "Ya istiqlal, ya ölüm" deyərək milli mübarizəni başladan Atatürk, milli və müstəqil bir dövlət meydana gətirərək, millətini müasir mədəniyyətlər səviyyəsinə daşımaqda, Türk ordusunu bir təminat olaraq göstərmişdir. Bu düşüncəsini ifadə etdiyi sözləri belədir:

> *"Ordu, Türk ordusu, məhz bütün millətin sinəsini etimad (güvən), qürur duyğuları ilə qabardan şanlı ad. Ordumuz, Türk birliyinin, Türk qüdrət və qabiliyyətinin Türk vətənpərvərliyinin poladlaşmış ifadəsidir. Ordumuz; Türk torpaqlarını və Türkiyə idealını həyata keçirmək (həyata keçirmək) üçün sərf etdiyimiz sistematik işin yenilənməsinin imkansız zəmanətidir." (Atatürkdən seçmə sözlər, toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 131)*



Vətən övladlarının vətənin bölünməz bütünlüyü üçün bir araya gəldiyi, keçmişi şanlı, gələcəyi parlaq Türk ordusunu Atatürk bu sözləri ilə müəyyən etməkdədir:



> *"Türkiyə Böyük Millət Məclisinin ordusu, işğallar etmək və ya səltənətlər qurmaq üçün onun-bunun əlində ehtiras aləti olmaqdan münəzzəhdir (onun-bunun əlində ehtiras vasitəsi olmayacaq qədər təmizdir). Humanist və müstəqil yaşamaqdan başqa məqsədi olmayan millətin eyni ideala bağlı və təkcə onun əmrinə tabe və sadiq öz övladlarından ibarət möhtərəm və qüvvətli heyətdir (hörmətli və güclü quruluşdur)." (Atatürkdən seçmə sözlər, toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 136)*

Atatürkün böyük güvən duyduğu və hörmət etdiyi, milli suverenliyi tək məqsəd hesab etmiş Türk ordusu, qanının son damlasına qədər vətən torpaqları uğrunda mübarizə əzmi göstərmişdir. Güvənə və tərifə layiq olan Qəhrəman Türk ordusu böyük zəfərlə; düşməndən təmizləyib, qanları ilə suladığı Türk torpağını, uca Türk Millətinə hədiyyə etmişdir. Ali Baş Komandan Atatürk qəhrəman Türk ordusunun böyük zəfərini bu sözləri ilə Türk xalqına müjdələmişdir:

> *"Böyük Türk Milləti, ordularımızın qabiliyyət və qüdrəti, düşmənlərimizə dəhşət, dostlarımıza güvən verəcək bir mükəmməllikdə idi. Millət orduları on dörd gün ərzində böyük düşmən ordusunu yox etdi. Dörd yüz kilometr aralıqsız təqib həyata keçirdi. Anadoludakı işğal edilmiş bütün torpaqlarımızı geri aldı." (Atatürk bir dövrün açılışı - Akademik Sədi Çay, səh. 384)*

Atatürk Türk ordusunun, düşmən süngüsünə gözünü qırpmadan, vətən üçün sinə gərərək qəhrəmanca döyüşməsindən duyduğu böyük qüruru sözlərində belə ifadə etmişdir:

> *"Tarixdə bütün vətəni, çox üstün düşmən gücləri qarşısında son torpaq parçasına qədər qarış-qarış qəhrəmanca və namusla müdafiə etmiş və yenə varlığını qoruya bilmiş ordular görülmüşdür. Türk ordusu, o cövhərdə belə bir ordudur. Yetər ki, ona əmr edənlər, əmr edə bilmə keyfiyyətinə sahib olsun." (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 135)*

> *"Qəhrəman Türk ordularının əldə etdiyi böyük zəfərlərdən, şəxsimə düşmüş olan vəzifələri edə bilmişəmsə çox bəxtiyaram. Tək bu nöqtədə bir həqiqəti açıqlamaq üçün söyləməliyəm ki: Mənim ordularımı və yönəldiyim hədəflər, əsasən ordularımın hər əsgərinin, bütün zabitlərinin və komandirlərinin fikirlərinin, vicdanlarının, əzmlərinin, ideallarının yönəlmiş olduğu hədəflər idi." (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 137)*

Ali Baş Komandanlığını etdiyi İstiqlal döyüşü zəfərinin tək sahibi olaraq Türk ordusunu göstərən Atatürk, Türk əsgərindən duyduğu məmnuniyyət və etibarı bu sözləri ilə dilə gətirmişdir:

> *"Türk nəfəri qaçmaz, qaçmaq nədir bilməz. Əgər Türk nəfərinin qaçdığını görmüşsünüzsə, dərhal qəbul etməlidir ki, onun başında olan ən böyük komandiri qaçmışdır." (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 137)*

> *"Öləni görür, üç dəqiqəyə qədər öləcəyini bilir, ən kiçik bir ümidsizlik belə göstərə bilmir; sarsılmaq yoxdur! Oxuma bilənlər əllərində Quranı-Kərim, Cənnətə girməyə hazırlanır. Bilməyənlər, kəlmeyi-şəhadəti deyərək gedirlər. Bu, Türk əsgərlərindəki ruh gücünü göstərən, təəccüblənəcək və təriflənəcək misaldır. Əmin olmalısınız ki, Çanaqqala müharibəsində zəfər qazandıran bu yüksək ruhdur." (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 136)*

Atatürk, Türk əsgərinin vətən sevgisini və imanını izah edərək, bənzərsiz xüsusiyyətlərin tərifini bu sözlərində etmişdir. Türk əsgərlərinin birlik olub meydana gətirdiyi, üstün gücü isə

belə təsvir etmişdir:



*"Mənim üçün ordumuzun qiymətini ifadə etməkdə ölçü budur: Türk ordusunu bir hissə bərabər qüvvətlisini hər halda məğlub edər. İki mislini dayandırar və təsbit edər (və yerinə mismarlayar)." (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 134)*

İstiqlal döyüşündə Türk ordusunun sərt və ani hücumları qarşısında çaşbaş qalan Türk düşmənlərinin, qəhrəman ordumuza və onun böyük komandiri Mustafa Kamala duyduğu heyranlığın ifadəsi olan sözləri belədir:

Gelibolu yarımadasının İngilis Ali Baş Komandanı Hamilton:

> *"Çox mükəmməl idarə edilən və cəsarətlə döyüşən Türk ordusuna qarşı döyüşürük."*

*General Aspinal:*

> *"Tarixdə bir diviziya komandirinin üç ayrı cəbhəyə, vəziyyətə nüfuz edərək, tək bir müharibənin gedişinə deyil, bir cəbhənin aqibətinə, hətta millətin qədərinə təsir edəcək, vəziyyət yaratmanın bənzərinə çox nadir rast gəlinir." (Atatürk, bir dövrün açılışı, Akademik Sədi Çay, səh. 383)*

Vətənin hər yerində dastanlar yazan, şanını bütün xalqlara bildirən böyük Türk ordusuna Atatürk bu sözlərlə xitab etmişdir.

> *"Türk ordusu! Dünyanın heç bir ordusunda ürəyi səninkindən daha təmiz, daha möhkəm əsgərə rast gəlməyib. Hər zəfərin mayası səndədir. Hər zəfərin ən böyük payı sənindir. Qənaətinlə, imanınla, itaətinlə heç bir qorxunun qorxutmadığı dəmir kimi təmiz ürəyinlə düşmənin sonunda üstəsindən gələn böyük səyin üçün könül borcumu və təşəkkürümü söyləməyi özümə əziz bir borc bilərəm." (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 138)*



Atatürkün məmləkətin böyük çətinlik içində olduğu dövrdə belə böyük zəfər əldə edən Türk ordusundan Türk Milləti adına bir də gözləntisi vardır. Bu gözlənti, çətin vaxtlarda göstərilən səyin Cümhuriyyətin hakim olduğu dövrdə də davam etdirilməsidir. Atatürk vətənin bölünməz bütünlüyünün qorunmasına, xalqın hər cür qarışıqlıq və anarxiyadan uzaq, rifah içində yaşamasına istiqamətli göstəriləcək bu səyi belə ifadə etməkdədir:

> *“Zəfərləri və keçmişi insanlıq tarixi ilə başlayan, hər zaman zəfərlə birlikdə mədəniyyət nurlarını daşıyan qəhrəman Türk ordusu!*

Məmləkəti, ən böhranlı və dözülməz anlarda zülmdən, fəlakət və müsibətlərdən və düşmən işğalından necə qorumuş və xilas etmisənsə, Cümhuriyyətin bugünkü səmərəli dövründə də hərbi texnikanın bütün müasir silah və vasitələri ilə təchiz olunmuş olaraq vəzifəsini eyni uğurla edəcəyinə heç şübhəm yoxdur.” (Atatürkdən seçmə sözlər, Toplayan: Cihad İmər, Remzi Kitabevi, 1989, səh. 138)

Heç şübhəsiz şanlı ordumuz, Atanın bu istəyini, xalqına verdiyi güvən və qürurla yerinə yetirərək, dünyada Türk Silahlı Qüvvələri olaraq şanlı tarixi ilə yerini almaqdadır. Böyük bir vəzifə eşqi ilə bu vəzifəni yerinə yetirən Türk Silahlı Qüvvələri, Atatürkün çəkdiyi yolda inamlı addımlarla güzəşt etmədən şərəflə getməkdə, Türk xalqının azadlığına qarşı yaranan gizli və açıq hər cür təhdidlə mübarizə etməkdədir.

## Atatürkün mədəni şəxsiyyətini əbədi olaraq yaşadan təşkilat: Türk Silahlı Qüvvələri

Türk Silahlı Qüvvələri Ulu Öndər Atatürkün izində inamlı addımlarla irəliləyərkən onun miras qoyduğu üstün xarakter, şəxsiyyət və əxlaq xüsusiyyətlərini də böyük qürur və ləyaqətlə üzərində daşımaqdadır. Bu qiymətli əmanəti gələcək nəsillərə ötürməyi şərəfli vəzifə olaraq qəbul etməkdədir.

Türk Silahlı Qüvvələri, daxili və xarici düşmənlərə qarşı, ölkəmizin varlığının və davamlılığının ən böyük təminatıdır. Bu şərəfli təşkilat, milli varlığımızı qorumaq üçün yüz minlərlə şəhid vermiş, tarixi şanlı zəfərlərlə dolu bir ordunun varisidir. Yüksək xarakterini və üstün təbiətini Türkün ayaq basdığı hər qarış torpaqda tarix boyu isbat etmişdir.



Ölkəmiz üzərində hiyləgər əməllər bəsləyənlərin fəaliyyətlərini bu günə qədər həmişə boşa çıxarmış olan Türk Silahlı Qüvvələri, dünən olduğu kimi bu gün də pusquda gözləyən düşmənlərini feili bir hücuma girişmək fikrindən daşındırmaqda, qəhrəmanlığı, vətənpərvərliyi və hərbi dahiliyi ilə bütün dünyanın heyranlığını qazanmağa davam etməkdədir. Şanlı Türk ordusu bu günə qədər, heç bir qarşılıq gözləmədən məmləkətimizin və millətimizin xeyirini, təhlükəsizliyini və bütövlüyünü nəzarəti altına almış; bütün təşkilatları ilə Cümhuriyyətimizin, dünyəviliyin, hüququn və demokratiyanın müdafiəçisi olmuşdur. Hər cür siyasi mübahisə və

çəkişmədə iştirak edən müqəddəs bir təşkilat olan Türk ordusu, Türk Millətinin sahib olduğu torpaqları işğalçıların əlindən xilas etmiş və Cümhuriyyət tarixi boyu da bu torpaqları hər cür daxili və xarici düşmənə qarşı qəhrəmancasına müdafiə etmişdir. Böyük Öndər Atatürkün, "Ordumuz; Türk torpaqlarının və Türkiyə idealını reallaşdırmaq üçün sərf etməkdə olduğumuz sistemli işin geri qaytarılmaz zəmanətidir" ifadəsi ilə də diqqət çəkdiyi kimi, Ordumuz varlığımızın ən əhəmiyyətli zəmanətidir.



Şanlı Türk ordusu, çökmüş imperiyanın içindəki milli torpaqları qorumaq üçün yüz minlərlə şəhid vermiş bir ordunun varisidir. Əvvəl Balkan müharibələrində böyük Slavyan ittifaqı ilə; sonra I Dünya Müharibəsi illərində, Çanaqqalada, Qut-ül Amarə, Süveyşdə, Qafqazda dünyanın ən güclü orduları ilə; ardından İstiqlal müharibəsində İngilis dəstəyi ilə Anadolunu işğal edən Yunan ordusu ilə döyüşmüş və beləcə bütün bu torpaqları o əsilzadə qanı ilə sulamış bir ordunun varisidir. Ardından, sahib olduğu üstün qabiliyyətlər, intizam və dayanıqlılığı ilə Avropanın işğalçı qüvvələrini dayandıran, II Dünya Müharibəsi illərində bütün Avropanı işğal edən Hitleri belə dayandıran, Sovet təhdidinə qarşı dimdik ayaqda dayanan, Koreyada qəhrəmanlıq dastanları yazaraq bütün dünyanın qibtəsinə nail olan, Kiprdə qorxmazlığını və dayanıqlılığını bütün dünyaya göstərmiş olan bir ordudur. Və 1980-ci illərin əvvəlindən bu yana, ölkənin birliyinə və bütövlüyünə qəsd edən terrora qarşı ən çətin və sərt mübarizələri verən, partizan döyüşündə verilə biləcək ən az itkinlərlə bəsirətli və təsirli mücadilə yürüdən güc də yenə Türk Silahlı Qüvvələridir. Terror təşkilatının, xarici ölkələrdən aldığı o qədər dəstəyə baxmayaraq məqsədinə çata bilməmiş olmasının, bunun əksinə süqut və dağılma prosesi yaşamasının ən böyük səbəbi, şübhəsiz ki, təxminən 15 ildir əzmlə davam etdirilən bu mübarizədir. Türk ordusu şanlı keçmişə dayanmaqdadır və bu gün də hələ eyni xüsusiyyətlə Türkiyə Cümhuriyyətinin ən böyük zəmanəti olmağa davam etməkdədir. Bu isə, şübhəsiz ki, vətənini və dövlətini sevən hər Türkün sinəsini qabartmaqdadır. Millətimizin ordumuza olan inancı və etibarı tamdır. Həyata keçirilən bütün sosial sorğu anketlərində Türk Silahlı Qüvvələrinin, millətimiz tərəfindən "ölkənin ən etibarlı təşkilatı" olaraq göstərilməsi də bunun bir ifadəsidir.

Türk ordusunun minlərlə illik şanlı tarixinin son əsri içinə alan şərəfli keçmişində Atatürkün Türk əsgərinə əmanət etdiyi mənəvi mirasın rolu əlbəttə ki, müzakirə edilməzdir. İndi Silahlı

Qüvvələr mənsublarımızın Atatürkün yolunu izləyərək və onu nümunə götürərək əldə etdikləri üstün xüsusiyyətlərinə toxunaq.

## Zabitlərimiz dəqiq təhsillə yetişdirilməkdədir



Zabitlərimiz, Uca Türk Millətinin içindən çıxmış, xüsusi imtahanlarla seçilmiş, ruhi və fiziki mükəmməlliyə çatmış, üstün və son dərəcə dəqiq təhsillə yetişdirilmiş qiymətli vətən övladlarıdır.

Türk Silahlı Qüvvələri, bu gün dünya səviyyəsində bacarıqlı, yüksək mədəniyyət sahibi, üstün xüsusiyyətli fərdlər yetişdirməkdədir. Necə ki, Türkiyədəki hərbi təhsil keyfiyyəti, edilən bütün dünya sıralamalarında, həm texniki məlumat, həm də hərbi şəxsiyyət baxımından ilk sıralarda yer almaqdadır. Zabitlərimiz fəlsəfə, sosiologiya, tarix, hərbi strategiya, hüquq, iqtisadiyyat, beynəlxalq əlaqələr, kompüter kimi bütün təməl mövzuları ayrı-ayrı dərslər halında detalları ilə oxumaqda və son siniflərdə mühəndislik fakültələrində keçirilən dərslərə də yiyələnərək Hərbi Akademiyalardan sistem mühəndisi olaraq məzun olmaqdadırlar.

Xüsusilə Baş Qərargah zabitlərimiz, həm Türkiyə məsələlərini çox yaxşı bilən, həm dünya tarazlıqlarını tanıyan, həm hərbi, siyasi, iqtisadi əlaqələri analiz edə bilən yüksək təcrübəli kəslərdir. Şəxsi ehtiyaclarına və ya zamanın şərtlərinə görə deyil, sadəcə vətənpərvər hisslərlə millətimizin hüzuru, dövlətimizin davamlılığı üçün çalışdıqlarından dolayı, özlərini inkişaf etdirməkdə sərhəd tanımamaqdadırlar.

Aldıqları uzun və dəqiq təhsil nəticəsində, bir professor səviyyəsində məlumata və təcrübəyə çatmaqda, həm yaxşı komandir, həm yaxşı dövlət adamı, həm yaxşı rəhbər olaraq yetişməkdədirlər. Cümhuriyyətimizin qurucusu Böyük Öndər Atatürk bu aydın, demokrat, qabaqcıl strukturun ən ideal nümunəsini təşkil etməkdədir. Necə ki, Cümhuriyyət tariximizdə bu günə qədər vəzifədə olmuş 9 dövlət başçısımızdan altısı da bu ocaqdan çıxmışdır.

Ordumuzun müvəffəqiyyətlərində, zabitlərimizin belə dəqiq və keyfiyyətli təhsil almalarının təsiri yüksəkdir.

# XARİCİ ÖLKƏLƏRDƏN ATATÜRKÜN ÜSTÜN ŞƏXSİYYƏTİ

> *"Kamal Atatürk və ya bizim Onun o vaxtlar tanıdığımız adı ilə Kamal Paşa, gənclik günlərimdə mənim qəhrəmanım idi. Böyük inqilablarını oxuduğum vaxt çox duyğulandım. Türkiyəni müasirləşdirmə yolunda Kamal Atatürkün ümumi səyi böyük təqdirlə qarşıladım. Onun dayanıqlığı, qorxmazlığı və yorulmaq bilməzliyi insanda böyük təsir yaradırdı. O, Şərqdə müasir dövrün qurucularından biridir. Onun ən böyük pərəstişkarları arasında olmağa davam edirəm."*

*Hindistanın baş naziri Cəvahirləl Nehru*

> *"Kamal Atatürk, şübhəsiz, iyirminci əsrdə II Dünya Müharibəsindən əvvəl yetişən ən böyük dövlət adamlarından biri, heç bir xalqa nəsib olmayan cəsur və böyük inqilabçı olmuşdur. O, xalqının azadlığını və yurdun bütövlüyünü təhdid edən düşməni yox etməyi və dünənki düşməndən, qisas alma və qisas hisslərinə qapılmadan dostluq və müttəfiqlik etməyi bilən güclü döyüşçü, tək başına bütün dünyaya qarşı müqavimət göstərməkdən qorxmayan sadiq və həqiqi vətənpərvərdir."*

*İsrailin baş naziri David Ben-Qurion*

> *"Dövrümüzdə; uzaqgörən, cəsur, siyasi, sosial və iqtisadi islahatlarla Türkiyəni bugünkü müasir Cümhuriyyət halına gətirən Kamal Atatürkdür. Eyni zamanda bu gün Türkiyənin Avropa Ortaq Bazarına girə biləcək gücə çatmasını təmin edən müasir iqtisadiyyatın təməlini hazırlayan da yenə Odur."*

*Hollandiyanın xarici işlər naziri Cozef Luns*

> *"Yoldaşlar, əsrlər nadir olaraq dahi yetişdirər. Bu bəxtsizliyimizə baxın ki, o böyük dahi dövrümüzdə Türk Xalqına nəsib oldu. Mustafa Kamalın dahiliyinə qarşı əldən nə gələrdi?"*

*(İngiltərə Baş naziri bu çıxışından sonra istefa etmişdir.)*

İngiltərənin baş naziri Lloyd Corc

> *“Mustafa Kamal haqqındakı məlumatı, onu çox yaxşı tanıyan birindən əldə etdim. SSRİ-nin Amerika tərəfindən tanınması mövzusunda Sovet Rusiyası Xarici İşlər Naziri Litvinov ilə görüşərkən, ondan bütün Avropanın ən qiymətli və maraq cəlb edici dövlət adamının kim olduğunu soruşdum. Mənə verdiyi cavabda Avropanın ən böyük dövlət adamının bu gün Avropada yaşamadığını, Boğazların gerisində, Ankarada yaşadığını, Bunun Türkiyə Dövlət başçısı Mustafa Kamal olduğunu söylədi.”*

*ABŞ-ın sabiq baş naziri Franklin Delano Ruzvelt*

> *“Qərbdə üsyan və inqilabların yavaş-yavaş əldə etdiklərini Atatürkün ölkəsi birdən-birə qazandı və Türk həyatında o qədər dərin izlər buraxdı ki, Qərbdəkilərdə bu, ancaq yüz ildə çata bilinəcək uğur idi.”*

*Macarlı professor dr. Layoş Fekete,1940*

> *“Heç bir Türk, vətəndaşlarının içində olduqları qorxunc vəziyyəti Kamal Atatürk qədər doğru bir şəkildə görə bilmədi. Türklərin düşünmə tərzinin nə şəkildə dəyişə biləcəyini anlayan sadəcə, o, olmuşdur.”*

*ABŞ generalı Çarlz Şeril, 1937*

> *“Yeni Türkiyə, Atatürklə tək İslam anlayışını və fikirlərini deyil, eyni zamanda Avropanın düşünmə tərzini də açmışdır. Türkiyə dürüstlük, səmimiyyət və reallıq siyasəti güdməkdə və bu səbəblə mənfi reaksiyalara, uğursuzluqlara uğramamaqdadır. Bu siyasətin özündən əvvəlkilərə bənzər tərəfi olmadığı kimi təqlidi də yoxdur.”*

*Alman tarixçi prof. dr. Herbert Meizing*

> *“Şöhrəti bütün dünyaya yayılmış olan təcrübəli prezidentin rəhbərliyi hər kəsin sevgisini və hörmətini çəkən böyük Türk xalqının milli müstəqilliyini davamlı müvəffəqiyyətlə qüvvətləndirmiş və yeni milli quruluşunu yaratmışdır.”*

*SSRİ baş naziri Kalinin, 1935*

> *“Türk inqilabının bütün Şərq dünyasının irəliləmə və inkişafındakı rolu, Qərb dünyasını mədəniyyət və sivilizasiya yoluna yönəldən Fransa İnqilabı qədər əhəmiyyətli və təsirlidir. İnqilabınızın qığılcımlarından çıxacaq atəş, bütün Şərq xalqlarını aydınladacaq, qamaşdıracaq və həqiqi nuru yaradacaq.”*

*Çinli general Ho-Yao-Su, 1936*

> *“O, gördüyü işlər ilə, tək Türkiyəyə deyil, bütün Şərq dünyasına qurtuluş yolunu göstərmişdir. O tarix böyüyünün, O Türk qəhrəmanın, O Şərqin qurtuluş və sivilizasiya öndərinin əsərini hər zaman sevgi və hörmətlə anacağıq.”*

*Hindistan Milli Məclisinin sədri Sir Əbdurrəhim, 1939*

> *“Kamalizm, sürətli inkişaf yolunu kəşf etdi və isbat etdi ki, tək bir qurşaqda intizamlı təhsil ilə populist böyük sivilizasiya inkişaf etdirilə bilər. Bu, insanlığa sınanmış fəlsəfə nümunəsi olaraq təqdim edilə bilər. Kamalizm, əsrlərə sığışa biləcək işləri on ildə tamamladı.”*

*Fransız yazıçı Gerard Tonqas, 1937*

> *“Atatürk tərəfindən yaradılan bugünkü müasir Türkiyəni tanıyanlar, birinci dünya müharibəsindən əvvəlki Türk yurdunun vəziyyətini təsəvvür belə edə bilməzlər.”*

*Almaniya səfiri F. Von Papen*

> *“Elə bir an düşünün ki, Qərb dünyamızda intibah, islahat, XII əsr sonunda elmi-mədəni üsyanı, Fransız üsyanı və sənaye üsyanlarının hamısı bir insan həyatının içinə toplanmış olsun və bunlar qanunla zəruri qılınsın. Məhz Atatürk, 1920-1930-cu illər arasında, bu qədər qısa müddət ərzində və heç bir ölkədə tətbiq oluna bilməmiş ən inqilabçı proqramı reallaşdırdı.”*

*İngilis tarixçi prof. Arnold Cozef Toynbi, 1963*

> *“Osmanlıların “xəstə adamı” yaxşılaşmamış, irəliləmiş və güclənmişdir. Atatürk bunu etməklə həqiqətən möcüzə göstərmişdir.”*

“Polska” qəzeti, Polşa, 1938

> *“Heç bir ölkə, yeni Türkiyənin Atası tərəfindən əldə edilən yeniləşmə qədər sürətli və bir o qədər kökdən inkişaf görməyib. Belə insanlar əsrlər ərzində bir dəfə görülür. İndi Türkiyənin tarixi bu bənzərsiz dövlət adamının tarixidir.”*

*Bolqarıstan “Dness” qəzeti, 1938*

> *“Türkiyə, İslam dünyasında bir möcüzə mənzərəsi göstərməkdədir. Türklər, əbədi olaraq Atatürkə minnətdar qalacaqlar.”*

*Çekoslavakya, Ç. T. K. agentliyi, 1939*

> *“Atatürkü hər zaman xatırlayacağıq. Atatürkdən əvvəl tarixə düşmüş heç kim, Atatürk qədər, milli həyata öz damğasını vurmaq yolu ilə dünyanı heyrətlər içində qoymamışdır. Atatürk, Türkiyə müasir anlayışının yaradıcısı olmuşdur və elə də qalacaq.”*

*ABŞ Xarici İşlər Naziri, 1938*

> *“Bundan sonrakı nəsillər Onun ağlına heyran qalan dastanlarını bir-birinə izah edəcək, bir tək adamın zəkası və gücü ilə necə bu böyük işləri bacardığını heyrətlə xatırlayacaqlar. Onun bir neçə il ərzində sevdiyi yurdunda yeni xalq yaratması, onu yüksəltməsi, mütərəqqilik və iqtisadi sahədə bu ölçüdə irəliləməsi, yaradıcılığının bənzərsizliyini göstərir.”*

*İraq, “Əl-Ərəbi” qəzeti, 1938*

> *“Onun adı, dünyanın ən böyük ilham qaynaqlarından biri olaraq yaşayacaq və müsəlmanların ən dərin vətənpərvərlik içində yaşamalarına öndərlik edəcək. Ona duyulan sevgi, həmişə bütün müsəlman dünyasına və insanlığa faydalı olacaq.”*

*(Anıtqəbir xatirə dəftəri, 1965)*

Pakistan, general Məhəmməd Əzəm Xan

> *“Sizlərə bunu deyim ki, mən Atatürkə katib olmaq istəyərdim. Səbəbi də, Onun hər gün axşam süfrəsində əyləşib, yüksək fikirləri ilə bəslənmək diləyində olmağımdır”*

*Fransa Baş Naziri Edouard Herriot, 1933*

> *“Dövlət rəhbəriniz kimi insanlığın ən yüksək mərtəbəsinə çatmış böyük dahinin bir ölkə üçün irəliləmənin ancaq, o ölkə qadınlarının ümumi səviyyəyə yüksəlmələri ilə reallaşacağını anlamış olması, beynəlxalq qadın davasını çox asanlaşdırmışdır. Sizə Atatürk tərəfindən qazandırılan hüquqlar və sizin azadlığınız bütün dünya qadınları üçün çox güvən verici və onların mübarizəsində onlara kömək edəcək.”*

*Beynəlxalq Qadın Birliyinin ümumi baş katibi Katerin Bonifas, 1935*

> *“Onun ölümü Türkiyənin sarsılması olmayacaq; çünki bütün gənc nəsil, rəhbər tərəfindən çəkilən yolu inancla və coşğu ilə izləməkdədir.”*

*Macarıstan, “UJ Magyar” qəzeti, 1938*

> *“İkinci Dünya Müharibəsinə qədər Mustafa Kamalın əsəri Türkiyə səviyyəsində qiymətləndirildi; köhnə bir ölkənin müasir xalq halına gəlməsi üçün sərf edilən səyi təqdir etməyən yoxdur. Bu əsər 1945-ci ildən bu yana nümunə dəyəri qazandı. Kamalizm, Türkiyə tarixinin bir səhifəsi olmaqdan çıxıb, siyasi sistemə öndərlik etməyə başladı. Çünki, yer üzündə hələ Moskvaya və Pekin nəzarətinə girməmiş olan üçüncü sinif dövlətlərə bu sistem yol göstərməkdədir. Yarı inkişaf etmiş xalqlar üçün marksizmin qarşısında dayanan ikinci alternativdir bu sistem.”*

*Fransız hüquqşunas, professor Moris Duverger, 1961*

> *“Boğazlar konvensiyasının yenidən nəzərdən keçirilməsini istəyərkən izlədiyi yol, vaxtı təyin etməsi mükəmməl idi. Hatayın Türkiyəyə qatılmasını təmin edən diplomatiya çalışması bir ustanın əsəridir. Dünyanın gedişi haqqındakı fikirləri də insanı ürpərdəcək qədər doğru çıxmışdır.”*

*İngiltərə, “Times” jurnalının əlavəsi, 1964*

> *“Dünya tarixində, Kamal Atatürk kimi, əhəmiyyətli bir vəzifəni qəti müvəffəqiyyət ilə nəticələndirən və bir xalqın xoşbəxt gələcəyini təmin edəcək məsuliyyətləri üzərinə götürən dürüst insanlara çox nadir rast gəlinməkdədir. Bu əzm və iradə ilədir ki, Atatürk; dahilik, qavrayış və müvəffəqiyyəti ilə nəticəsiz bir döyüşlə uçurum kənarına gəlmiş olan yurdunu xilas etməklə kifayətlənməmiş, eyni zamanda məmləkəti müasir sivilizasiya səviyyəsinə çatdıracaq bütün təməlləri atmışdır.”*

*İran şahı Rza Şah Pəhləvi, 1963*

> *“Onun yeni Türkiyəni yaradan möcüzəsi, əsrləri geridə buraxan abidə olaraq qalacaq.”*

*Yunanıstanın Baş Naziri Y. M. Metaksas, 1938*

> *“Həyatının sonuna qədər xalqının mütləq etibarı ilə qurduğu dövlətin başında qalan müzəffər komandirin şəxsiyyəti, misli görülməmiş bir xarakter nümunəsidir.”*

*İtalyan nazir Soforça*

> *“Xalqını azadlıq və demokratiyaya qovuşdurmaq üçün döyüşərək müvəffəqiyyət qazanan böyük Türk öndəri haqqında əngin duyğularımı və heyranlığımı çatdırmaq istəyirəm. Atatürkün həyatı və əsəri tək Türkiyə üçün deyil, lakin dünyanın bütün azad xalqları üçün də ilham qaynağı olmaqda davam edəcək.”*

*Çin Dövlət Başçısı Çan Kayşi, 1963*

> *“Yaponiyada Atatürk, birinci dünya müharibəsindən sonra dağıntılar arasından Türkiyəni xilas edərək böyük zəfərə çatdıran qəhrəman və Osmanlı İmperiyası xarabalıqlarından yeni Türkiyə Cümhuriyyətini yaradan böyük dövlət adamı olaraq çox yaxşı tanınmaqdadır. Xüsusilə Atatürkün Türk Dili İnqilabını reallaşdırması və dinlə, siyasəti bir-birindən ayıraraq Türk cəmiyyətinin müasirləşməsini təmin etmək yolundakı səylərinə qarşı böyük bir heyranlıq duymaqdayıq.”*

*Yaponiyanın baş nazir Hayato İkeda, 1963*

> *“Qüvvətli xarakterli və dünya xalqları arasında öz xalqını, haqlı qüruru üzərinə qəti fikirli adam olaraq heç vaxt şan-şöhrət arxasınca qaçmadı. Yurdunun mənfəətlərini hər şeyin üzərində tutan və milləti üçün hər faydalı nəticəyə çatmağa çalışan bu şəxs gücünü damarlarına işləyən vəzifə duyğusundan alır.”*

*İngilis yazıçı Roulinson*

HARUN YƏHYA (ADNAN OKTAR)

# HƏQİQİ ATATÜRKÇÜLÜK

HARUN YƏHYA KİLLİYYATI